

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zərifə xanım Əliyeva: ən gözəl həkim, həyat yoldaşı, ana...



5

# "Almaniya-Azərbaycan əlaqələri sürətli inkişaf dövrünü yaşayır"

3



*Azərbaycan Prezidenti İlham Əliyev Berlində bir sıra mühüm görüşlər keçirib*

SƏS

№ 073 (6998)

27 aprel 2024-cü il.
Qiyməti 60 qəpik

# Avropanın süqutu










7

## COP29: niyə Bakı?




15

## Əli Kərimli nasistlərə xidmət etməyi Rusiyaya rəğbətdən üstün hesab edir



15

## Rəsmi nikah, yoxsa vətəndaş evliliyi vacibdir?



16

## "Qafqazda Rusiyanın yeganə sabit tərəfdaşı Azərbaycandır"




15

## Bu gün 32 dərəcə isti olacaq



16

# “Neft-qaz sahəsində uzun illər xüsusilə də Avropa bazarlarına nəql ediləcək resurslarımız var”

## *Prezident İlham Əliyev Berlində “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirak edib*





***Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın paytaxtı Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyevi Almaniyanın Federal Kansleri Olaf Şolts və xarici işlər naziri xanım Annalena Berbok qarşılayıblar. Prezident İlham Əliyev toplantıda çıxış edib. Dövlətimizin başçısı çıxışında qeyd edib ki, Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür. Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, bu, həmçinin əlavə üstünlükdür, çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır:***

- Hörmətli cənab Kansler.

Hörmətli xanım nazir.

Xanımlar və cənablar.

Əvvəlcə, “Petersberq Dialoqu”nda iştirak etmək üçün məni dəvət etdiyinə görə cənab Kanslerə təşəkkürümü bildirmək istəyirəm. Bu gün burada sizinlə olmaq böyük şərəfdir. COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir. Hazırlıq üçün bizim bir ildən də az vaxtımız qalırdı. Beləliklə, biz yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik.

COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq.

Bunları söyləyəndə, mən 120 ölkəni birləşdirən hərəkatda, yəni Qoşulmama Hərəkatında bir neçə il – dörd il ərzində sədrliyimizi nəzərdə tuturam. Biz yekdil qərarla seçildik və sədrliyimiz yekdil qərarla bir il də uzadıldı. Sədrliyimiz zamanı biz Hərəkatın bir çox üzvləri ilə olduqca məhsuldar münasibətlər qurduq. Sədrliyimiz COVID-19-a təsadüf etdi. Beləliklə, biz çox məsuliyyətlə davrandıq və 80-dən artıq ölkəyə humanitar, maliyyə və texniki yardım göstərdik. Bir sözlə, ümid edirəm ki, həmin beynəlxalq platforma bizə Qlobal Cənub ölkələrini ümumi gündəliyə əlavə etmək imkanını yaradacaq. Eyni zamanda, bir çox Avropa ölkələri ilə münasibətlər uğurla inkişaf edir. Avropa İttifaqının doqquz üzvü ilə Azərbaycan “Strateji Tərəfdaşlıq” haqqında razılaşmalar və bəyannamələr imzalayıb, yaxud qəbul edib. Bunları söylədikdə, ümid edirəm ki, həmin beynəlxalq əlaqələr bizə həmrəyliyi gücləndirməyə imkan verəcək. Bizə məhz bu lazımdır. Bizə maliyyə lazımdır. Bizə həmrəylik lazımdır və bizə ortaq məsuliyyət lazımdır.

Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür. Hesab edirəm ki, bu, həmçinin əlavə üstünlükdür, çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Beləliklə, həmin müxtəlif rollar, fikrimcə, yaxşı həmrəylik ruhunu yaradacaq və bizə məqsədlərimizə nail olmağa imkan verəcək. COP-a ev sahibliyi edəcək ölkə kimi seçilməyimizdən dərhal sonra bəzi mətbuat orqanları əsas diqqətini bizim enerji quruluşumuza və enerji tarixçəmizə yönəltdilər. Mən hər zaman demişəm ki, neft və qaz ehtiyatları bizim günahımız deyil. Bu, Tanrıdan verilən vəsilədir. Buna görə biz mühakimə olunmalı deyilik. Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, yaşıl gündəliklə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik.

Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən Memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda, yaşıl gündəliyimiz hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb.

Biz xarici tərəfdaşlar və sərmayədarlarla yaşıl keçid üzrə artıq nəhəng layihələrə başlamışıq. Bu il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Yalnız bu il ərzində 1300 meqavat Günəş və külək enerjisini istehsal etmək imkanını yaradacaq enerji stansiyalarının təməlqoyma mərasimi keçiriləcək. 2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat Günəş və yaşıl enerji imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 Günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq. Bir sözlə, bu, əslində, hər kəs üçün uduşlu variantdır. Biz olduqca münbit sərmayə mühitini yaratmışıq. Qeyd etdiyim bütün həmin yaşıl enerji layihələri xarici sərmayədarlar tərəfindən maliyyələşdirilir.

Azərbaycan, sadəcə, öz infrastrukturunu və çox yaxşı sərmayə mühitini təmin edir. Biz Avropaya lazım olan böyük həcmdə təbii qaza qənaət edəcəyik. Eyni zamanda, hazırda Xəzərdə külək enerjisi stansiyalarından Avropaya vahid ötürülmə xətlərini, o cümlədən Qara dənizin dibi ilə kabeli çəkmək üçün texniki əsaslandırma işlərinin son mərhələsindəyik. Bu, dörd qiqavat həcmində Azərbaycanın yaşıl enerjisini Avropaya ixrac etmək imkanını yaradacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatlarımız 157 qiqavatdır. Bu, potensialın təzahürüdür. Uzun illər külək Bakı sakinləri üçün müəyyən narahatlıq yaradırdı. Lakin indi külək enerjisi böyük işlər, əməkdaşlıq və tərəfdaşlıq şəraitini yaradacaq və enerji təhlükəsizliyini gücləndirəcək. Bir sözlə, yekun fikrim ondan ibarətdir ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin, eyni zamanda, artıq qeyd etdiyim kimi faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar.

Cənab Kansler, xanım nazir, dəvətə görə bir daha minnətdaram. Sizin aranızda olmaqdan böyük şərəf və iftixar hissi duyuram. Sizə uğurlu müzakirələr arzulayıram.

Sonra Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts çıxış edib:

-Hörmətli cənab Prezident Əliyev. Mən Sizi növbəti İqlim Konfransının təşkilatçısı, bizim qonağımız kimi salamlamaqdan məmnunam.

Hörmətli xanım Annalena Berbok, cənab nazirlər.

Xanımlar və cənablar, sizin hamınızı Berlində salamlamaqdan çox məmnunam.

Kansler Olaf Şolts Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentinin iqlim dəyişikliyi ilə bağlı qarşıda duran vəzifələrin həlli baxımından mühüm əhəmiyyətini vurğuladı. O, yaşıl enerjiyə keçidlə bağlı bütün ölkələrin səyləri birləşdirməsinin vacibliyini xüsusi diqqətə çatdırdı. Artıq həmin istiqamətdə 78 dövlətin konkret iş birliyi yaratdığını dedi.

Olaf Şolts Dubayda keçirilmiş COP28-dən sonra bu sahədə məqsədyönlü tədbirlərin daha da gücləndirildiyini bildirərək dedi:

-Biz buradan Dubayda keçirilmiş beynəlxalq İqlim Konfransının uğurlarına boylanırıq. Eyni zamanda, biz səy göstəririk ki, bu ilin noyabrında Bakıda, gələn il isə Belemdə keçiriləcək konfranslarla bugünkü konfransın uğurunu əlaqələndirək. Bizim məqsədimiz “Petersberq İqlim Dialoqu” vasitəsilə buna töhfə verməkdir.

Almaniyanın Kansleri iqlim dəyişikliyi ilə bağlı 2030-cu ilə qədər dünyada əsaslı irəliləyişə nail olunacağına əminliyini vurğuladı. O, qarşıda duran vəzifələrin həlli üçün Azərbaycanda keçiriləcək COP29-a qədər də ardıcıl iş aparılacağını vurğulayıb:

-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya birlikdə “Üçlük” olaraq öz qarşılarına məqsəd qoyublar ki, COP29 və COP30 istiqamətində milli səviyyədə müəyyən edilmiş töhfələrin birgə təqdim olunması üçün fəaliyyət göstərsinlər. Məhz bu istiqamətdə olan format uzunmüddətlidir və mən bunu alqışlayıram. Federal hökumət bütün gücü ilə bunu dəstəkləyəcək. Xanımlar və cənablar, Almaniya artıq bu istiqamətdə kurs götürüb.

Kansler Olaf Şolts iqlim dəyişikliyi ilə bağlı tədbirlərin lazımınca həyata keçirilməsi üçün ilkin hesablamaya görə təqribən 2,4 trilyon dollar vəsaitin lazım olacağını bildirdi. O, yaşıl texnologiyalara keçid və qarşıda duran digər çoxsaylı vəzifələrin öhdəsindən bacarıqla gəlmək üçün birgə səyləri daha da gücləndirməyin zəruriliyini bildirərək vurğulayıb:

-Bakıda keçiriləcək konfransda 2025-ci ildən sonra da iqlimin maliyyələşdirilməsi əsas danışıqlar predmeti olaraq qalacaq. On beş il bundan əvvəl olduğu kimi, biz artıq gələcəyin texnologiyasından qoşqu kimi istifadə etmirik. Biz artıq nail olmuşuq ki, texnologiyaların qlobal səviyyədə maliyyələşməsi, yayılması mümkün olsun, özü də mümkün münasib qiymətlərlə.





# “Almaniya-Azərbaycan əlaqələri sürətli inkişaf dövrünü yaşayır”

*Azərbaycan Prezidenti İlham Əliyev Berlində bir sıra mühüm görüşlər keçirib*

***Dünən Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə əvvəlcə təkbətək, daha sonra geniş tərkibdə görüşü olub.***

Azərbaycan Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts daha sonra birgə mətbuat konfransı keçiriblər. Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, “son vaxtlar mənim Almaniyaya səfərlərim müntəzəm xarakter alıb. Deyə bilərəm ki, son müddət ərzində Almaniya-Azərbaycan əlaqələri sürətli inkişaf dövrünü yaşayır.”

Keçən ilin martında Berlində, iki ay əvvəl Münxendə Kansler ilə görüşdüyünü xatırladan dövlətimizin başçısı bildirib: “İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir”.

Prezident İlham Əliyev Almaniyanın COP29 ilə bağlı Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı deyib: “Bizim komandalarımızın üzvləri bir-biri ilə sıx təmasdadırlar. COP29-un ev sahibliyini etmək bizim üçün həm böyük şərəf, həm də məsuliyyətdir. Biz buna hazırıq və Azərbaycanın yaşıl gündəliyi artıq dünyaya bəllidir”.

“Ermənistanla Azərbaycan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası, hətta demarkasiyası da başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılıb.” Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da Berlində Almaniyanın Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransında söyləyib.

Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin bu gün səhər fəaliyyətini dayandırdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: “Yəni, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə əməkdaşlıq etməyə hazırıq”. Kansler Olaf Şoltsun dəvəti ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin bu yaxınlarda Almaniyada görüşdüklərini xatırladan dövlətimizin başçısı bildirib: “Növbəti görüş Qazaxıstanda planlaşdırılacaq və beləliklə, sülh sazişinin imzalanmasına doğru biz əlavə addımlar atırıq. Biz Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndiririk”. Dövlətimizin başçısı diqqətə çatdırıb ki, müharibədən cəmi 3 il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir.

Bu ilin sonuna qədər 20 min məcburi köçkünün doğma yurduna qayıdacağını bildirən dövlətimizin başçısı qeyd edib ki, qayıdan hər insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə, şəhidlərimizə Allahdan rəhmət diləyərək qayıdır. Bu, ümumxalq məsələsidir. “Torpaqlarımızın azad edilməsi necə ümumxalq məsələsi idisə, torpaqların bərpa olunması da ümumxalq məsələsidir”, - deyə Prezident bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, neft və qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalıdır. Bu ölkələr iqlim məsələlərinin həlli üçün çox böyük səylər göstərmişdir. Bu gün BƏƏ, Azərbaycan və Braziliya troyka şəklində fəaliyyət göstərir. Bu ölkələrin əldə olunmuş gəlirlərin yaşıl enerjiyə sərf edilməsi istiqamətdə addımlar atdıqlarını vurğulayan dövlətimizin başçısı deyib: “COP29 qarşıdurma arenası olmayacaq. Azərbaycan ev sahibi kimi körpülər yaradacaq. Azərbaycan Qərblə Qlobal Cənub arasında körpü rolunu oynamaq fikrindədir, o cümlədən yaşıl enerjiyə keçid və iqlim dəyişikliyi ilə bağlı. Avropada təbii qaza - yeni mənbələrdən olan qaza tələb artır. Əgər 2021-ci ildə biz Avropa İttifaqı ölkələrinə 8 milyard kubmetr qaz təchiz etmişdiksə, bu il bu rəqəm 12 milyarda çatıb. Biz əlavə sərmayə qoyuruq, əlavə vəsait ayırırıq ki, Avropa ölkələrini bu məsələdə dəstəkləyək. Beləliklə, həm ənənəvi enerji növləri, eyni zamanda, bərpaolunan enerji növləri ilə zəngin olan Azərbaycan Avropa üçün uzun illər bundan sonra əhəmiyyətli tərəfdaş kimi olacaqdır”.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, 2027-ci ilin sonuna qədər 9 günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədərdir. Azərbaycanın Avropaya yaşıl enerjini ixrac etmək üçün fəal çalışdığını vurğulayan dövlətimizin başçısı deyib: “Hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı da olacaq”.









“Düşünürəm ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu, özündə imkanlar və məsuliyyət gətirir.” Bu fikirləri Almaniya Kansleri Olaf Şolts Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi brifinqdə bildirib.

Demarkasiya ilə bağlı ilkin razılıqların Almaniya tərəfini sevindirdiyini deyən Kansler bu dinamikanı saxlamağı və bu istiqamətdə cəsarətli addım atılmasını dəstəklədiyini vurğulayıb.

Dünən Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək və geniş tərkibdə görüşü keçirilib.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşü olub. Annalena Berbok “Petersberq İqlim Dialoqu” çərçivəsində aparılmış müzakirələrin vacibliyini və Prezident İlham Əliyevin bu əsnada çıxışını qeyd edib. O, COP29-la əlaqədar Almaniya ilə Azərbaycanın müvafiq heyətləri arasında sıx əməkdaşlığın olduğunu və mütəmadi əsasda məsləhətləşmələrin aparıldığını müsbət hal kimi qiymətləndirib. Almaniyanın Azərbaycanın COP29-a sədrliyinin dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəyini deyib.

Azərbaycan Prezidenti COP29-la əlaqədar Almaniya ilə əməkdaşlığa və “Petersberq İqlim Dialoqu” formatındakı müzakirələrə dəvətə görə bir daha təşəkkürünü bildirib. Dövlətimizin başçısı qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsi prosesi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin tərkibi olaraq ərsəyə gəlib. Annalena Berbok Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini bundan sonra da dəstəkləyəcəyini vurğulayıb.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında keçirilmiş görüşün önəmini qeyd edib, bu görüş çərçivəsində aparılmış müzakirələrin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə ciddi təkan verdiyini bildirib.

Dövlətimizin başçısı Almaniya xarici işlər nazirinin dəstəyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında sülh müqaviləsi üzrə danışıqların aparıldığını vurğulayıb, bunun sülh müqaviləsi üzrə danışıqların irəli aparılması üçün vacib addım olduğunu deyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində həmçinin Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə də görüşü keçirilib. Sultan Əhməd Əl-Cabir Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir BƏƏ-nin COP28-in sədri və ev sahibi olaraq Azərbaycanla yaxından işləməkdən məmnunluğunu bildirərək, COP29 ilə bağlı BƏƏ-nin Azərbaycana dəstəyini əsirgəmədiyini diqqətə çatdırdı, bu istiqamətdə birgə işləməyə və əməkdaşlığa hazır olduqlarını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanla BƏƏ arasında birgə fəaliyyətin əhəmiyyətini və COP28-də “üçlük” mexanizminin yaradılmasının vacibliyini qeyd etdi.

# “Mənəvi dəyərlərin təcəssümü: qəlblərdə yaşayan nurlu insan”

## *Akademik Zərifə Əliyevanın anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilib*









***Aprelin 26-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və YAP Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə görkəmli alim, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Mənəvi dəyərlərin təcəssümü: qəlblərdə yaşayan nurlu insan” mövzusunda tədbir keçirilib. Tədbirdən öncə Zərifə Əliyeva adına parkda görkəmli alimin abidəsi və Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası qarşısındakı abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb.***

YAP Binəqədi rayon təşkilatının inzibati binasında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub. Dövlət Himni səsləndirilib.

Sonra “Əsl məhəbbət haqqında” sənədli film nümayiş etdirilib.Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədr müavini Sevinc Abdullayeva bildirib ki, genişmiqyaslı fəaliyyəti ilə xalqımızın rəğbətini qazanmış Zərifə xanım Əliyevanın şərəfli ömür yolu mənəviyyat, kamillik və müdriklik məktəbidir. Xalqımıza məxsus xeyirxahlıq, mərhəmətlilik kimi nəcib keyfiyyətləri, saf mənəvi dəyərləri, eləcə də müasirliyi və əməksevərliyi nurlu şəxsiyyətində cəmləyən qayğıkeş ana, dəyərli alim, nüfuzlu ictimai xadim olan Zərifə xanım Əliyeva insani keyfiyyətləri ilə əsl Azərbaycan qadınının ideal obrazını yaradıb. “Azərbaycan tibb elmində silinməz izlər qoymuş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də göz önündə mənəvi kamilliyin uca zirvəsinə yüksəlmiş görkəmli elm fədaisinin nurlu çöhrəsi canlanır. Onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük” ,-deyə S.Abdullayeva vurğulayıb.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva deyib ki, həkim-oftalmoloq, elm fədaisi, vətənpərvər alim, xeyirxah insan, sədaqətli ömür-gün yoldaşı, cəfakeş ana kimi xatirələrdə yaşayan Zərifə xanım Əliyeva hər bir azərbaycanlı üçün fəxarət və qürur mənbəyidir: “Böyük Çin filosofu Konfutsi yazırdı ki, hər bir insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir. İnsanın mahiyyəti, mənəvi keyfiyyətləri, həqiqətən də, onun əməllərində, fəaliyyətində real təcəssümünü tapır. Dərk edilmiş məsuliyyətdən irəli gələn bu fəaliyyət belə insanların cəmiyyətdəki layiqli mövqeyini, ictimai statusunu müəyyənləşdirir. Yəqin, elə buna görədir ki, xeyirxah və alicənab insan kimi tanınaraq ömrün kamillik zirvəsinə yetişmək, çalışdığı sahənin mükəmməl bilicisi kimi insanlara, cəmiyyətə məsuliyyətlə xidmət edə bilmək xoşbəxtliyi heç də hamıya nəsib olmur. Zərifə xanım Heydər Əliyev kimi görkəmli bir şəxsiyyətin ömür-gün yoldaşı olaraq onunla çiyin-çiyinə addımlamaq, qayğılarına ortaq olmaq, onun ocağını isitmək və Azərbaycanın taleyində önəmli rol oynayacaq övladlar yetişdirmək kimi bir missiyanı da şərəflə yerinə yetirmişdi. Bəlkə də, çoxlarının həsəd aparacağı bu ömür, əslində, çox böyük məsuliyyətlər yüklənmiş bir həyat idi. Lakin o, bütün vəzifələrinin öhdəsindən uğurla gəlir, əl uzatdığı hər işə sevgiylə yanaşırdı. Akademik N.Puçkovskayanın təbiri ilə desək, “Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi”. Onun xatirəsi hər bir azərbaycanlı üçün əzizdir”.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri, tibb elmləri doktoru, professor Tofiq Cahangirov çıxışında bildirib ki, sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanım Əliyeva oftalmologiya elminin inkişafına dəyərli töhfələr verib, bu sahə üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsinə böyük əmək sərf edib. Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir: “Onun fəaliyyət göstərdiyi dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan Vətənə qayıdaraq Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayıb. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail olur. Tədqiqatlarının yekunu olaraq 1959-cu ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu. Zərifə xanım Əliyeva Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda “Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti” mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafat verilmişdi. O, həmin mükafata layiq görülən ilk qadın alim idi. Bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir”.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Modern Ailə və İnkişaf İctimai Birliyinin sədri Zərifə Quliyeva bildirib ki, cəmiyyətdə tutduğu yüksək mövqeyə baxmayaraq, Zərifə Əliyeva ilk növbədə ailəsinin qayğıları ilə yaşayırdı. Ulu Öndər Heydər Əliyev qazandığı nailiyyətlərdə vəfalı ömür-gün yoldaşı Zərifə xanımın böyük töhfələrinin olduğunu daim vurğulayırdı. Hər bir kəsə örnək olası bir ailə quran bu şəxsiyyətlər yüksək mənəviyyat, ali mərhəmət, misilsiz insanpərvərlik, dəyərli vətəndaşlıq xüsusiyyətləri ilə bir-birlərini tamamlamışlar. “Zərifə xanımın həyatını mənalandıran nə varsa - onun elmi, ailəsi, xeyirxahlığı, səmimiyyəti, insanlara doğma münasibəti - hamısı ruhundan, nurundan şölələnmişdi. Yaxından tanıyan həmkarları həmişə böyük rəğbətlə qeyd edirlər ki, görkəmli alim övladlarına çox bağlı, onların tərbiyəsi üçün bütün enerjisini sərf edən valideyn idi. Cənab İlham Əliyev kimi dünya miqyasında tanınan və qəbul olunan bir şəxsiyyətin qazandığı nailiyyətlərdə, şübhəsiz ki, valideynlərinin düzgün tərbiyəsi, övladı müdrikliklə formalaşdırmaq ənənəsi mühüm rol oynayır”,- deyə Z.Quliyeva vurğulayıb.

Milli Məclisin deputatı Müşfiq Məmmədli isə çıxışında bildirib ki, 150-dən artıq elmi əsərin müəllifi olan akademik Zərifə Əliyeva çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərinə görə Azərbaycanın “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. Bununla yanaşı, görkəmli alim SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışıb. O, respublika “Bilik” Cəmiyyəti İdarə Heyətinin və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü, o cümlədən “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü olub. Bu, Zərifə xanımın ictimai fəaliyyətinin də respublikamız üçün faydalı, səmərəli olduğunu göstərir.

Onun sözlərinə görə, Zərifə xanım Əliyeva Azərbaycan naminə misilsiz işlər görüb: “O, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana kimi də bu missiyasını ləyaqətlə yerinə yetirib. Zərifə xanım cənab İlham Əliyev kimi övlad yetişdirib. Heydər Əliyev və Zərifə Əliyeva məktəbindən dərs alan Prezident İlham Əliyev ata vəsiyyəti ilə yanaşı, xalqa, dövlətə, Vətənə sədaqət andını gerçəkləşdirərək Azərbaycana tarixi nailiyyətlər qazandırıb, ölkəmizin adını qalib və qüdrətli dövlətlər sırasına yazdırıb. Buna görə də həm Ulu Öndər Heydər Əliyevin, həm də Zərifə xanım Əliyevanın ruhu şaddır”.





# Zərifə xanım Əliyeva: ən gözəl həkim, həyat yoldaşı, ana...

***Bəli, elə bir xanım, elə bir həkim, elə bir həyat yoldaşı, elə bir ana tanıdıq ki, bu gün qarşımızda bütün bu titulların üstün və gözəl cizgilərindən yaranmış bir portret var: Zərifə xanım Əliyevanın portreti. Bu portret nur saçır ətrafa. Ötən bir əsrdə ən gözəl xanım, ən bacarıqlı həkim, ən dəyərli həyat yoldaşı və ən gözəl ana ömrünü yaşayan və bu gün hər bir azərbaycanlı qadın üçün nümunəyə çevrilən Zərifə xanım Əliyevanın nurlu həyat yolu ətrafa işıq yayır o portretdən. Baxdıqca, qürur duyur, nə gözəl bir insan tanımışıq, deyirik.***



Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, ölkəmizə müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana Zərifə xanım Əliyevanın bu il 101 yaşı tamam olur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 3 noyabr 2022-ci il tarixdə imzaladığı Sərəncama əsasən yubiley ötən il ölkəmizdə böyük tədbirlərlə qeyd edildi. Sərəncamda deyilirdi: Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

### İşıqlı ideallara doğru

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmış, zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi. Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təva¬zökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında həmişə yüksək fikirdə olublar. Akademik A.Nesterov: "Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm".

Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutneva: "Bu cür tədqiqatlar həcminə və vacibliyinə görə seçilsə də, çox zəhmət tələb etsə də, sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanmış, istehsalata tətbiq edilmişdir. Zərifə xanımın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir".

Tibb elmləri doktoru, professor Z.Skripniçenko: "Zərifə xanımın elmi maraq dairəsi çox geniş idi. O, bir ümumi dəftərə yeni kitab üçün nəzərdə tutduğumuz fikirləri qeyd etmişdi. Bunlar əsasən toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərdən, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulan məruzələrdən ibarət idi".

### Həkim insanlara günəş qədər lazımdır

Tələbəlik illərində fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və o, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır.

Zərifə xanım ilk növbədə həkim idi, bu peşəni çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: "Həkim insanlara günəş qədər lazımdır". O, ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Zərifə xanımın başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, onun optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstə¬liyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstə¬liklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır.

Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq, indi də tətbiq edilir və insanlara nur bəxş edir.

### Dosentlikdən akademikliyə qədər

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

***Ardı Səh. 6***

# Zərifə xanım Əliyeva: ən gözəl həkim, həyat yoldaşı, ana...





Əvvəli-Səh-5

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümum¬ittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir.

Görkəmli alimin qələmə aldığı "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı. Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndərimiz deyirdi: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

### Xəstənin əzablarını öz əzabları bilən həkim

Zərifə xanımın gözəl insani dəyərlərə malik olmasını onun daim həkim-xəstə münasibətinə xüsusi diqqət yetirməsində görmək mümkündür. O, dəfələrlə demişdir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır.

Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində yazırdı: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?".

Bəli, xəstənin ümid yeri həmişə həkim olub. Onun gözləri daim həkimini-onun şəfası ola biləcək insanı axtarıb. Həkim xəstənin son ümididir. Və xəstənin həkimdən gözlədiyindən böyük gözlənti ola bilməz. Bu səbəbdən də Zərifə xanımın dəyərli kəlamları bir tərəfdən onun iç dünyasının həssaslığının, insani keyfiyyətlərinin, gözəl duyğularının göstəricisidirsə, digər tərəfdən də bir həkimlik məktəbinin dərsidir. Hər bir həkim üçün gərəkli olan dərsdir. Bütün dövrlərdə həkimlərin öyrənməli, yaddaşlarına həkk etməli olacağı dəyərdir. Yalnız bu dəyərləri əxz etməklə əsl həkim olmaq, Zərifə xanım Əliyeva kimi həm tarixdə, həm də qəlblərdə yaşamaq olar.

### Əsl məhəbbət haqqında

Zərifə xanım Əliyevanın bu gün baxdıqca baxdığımız portretində görünən əsas cizgilərdən biri də onun sədaqətli, vəfalı ömür-gün yoldaşı olmasıdır. Zərifə xanım Əliyeva ona İlahi bəxşişi olan nuru həm ailəsinə, həm övladlarına, həm peşəsinə, həm də həyatda insanlarla münasibətinə o qədər bərabər şəkildə paylaya bilmişdi ki, ətrafında olanların hər biri bu nurun işığında onu ali bir insan kimi görürdü. Görürdü ki, o, həm ailəsi, həm də cəmiyyət üçün dəyərlidir. Dəyərli olduğu qədər də səmimidir. Bu səmimilik isə onun sadəliyindən, həssaslığından və ailəsində aldığı tərbiyədən irəli gəlirdi.

Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan Ulu Öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də olublar, lakin bu film insanın qəlbində dərin hissləri oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...

### Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur

Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Ömrünün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən lider olan Ali Baş Komandanımızı bəxş etmişdir.

Prezident cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.

### Bir ailənin iki 8 noyabrı

İlləri ayrı-ayrı olsa da, iki 8 noyabr Azərbaycan xalqının azadlığı, müstəqilliyi, var olması uğrunda fədakarlıqlar göstərən Əliyevlər ailəsinin həyatında əlamətdarlığı ilə eyni rəqəmlərdir. 1954-cü ilin 8 noyabrı Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyevanın evlilik tarixi, 2020-ci ilin 8 noyabrı isə "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir",- deyən Ulu Öndərin işğal altında olan torpaqlarımızla bağlı narahatlığına son qoyulan gündür. Qarabağın baş tacı Şuşanın işğaldan azad olunduğu, Qarabağ savaşının bitdiyi, Zəfər bayrağının qaldırıldığı, ata vəsiyyətinin yerinə yetirildiyi gündür.

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə və 2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatları ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq. Beləliklə, 8 noyabrın bu ailənin taleyinə yazılması heç də təsadüfi deyilmiş... Hər zaman qürur duyduğumuz ailə.

***Mətanət Məmmədova***

ANALİTİK

# Avropanın süqutu



## *Fransa prezidenti "Qoca qitə"nin ölümü ilə bağlı xəbərdarlıq etdi*

***Fransa prezidenti Emmanuel Makron Sorbonna Universitetində Avropanın gələcəyi ilə bağlı çıxış edib. Əsas tezislər onun "ABŞ-ın vassalı" olmadığını göstərə biləcək Avropanın yaradılması zərurətindən qaynaqlanıb. Qarşıya qoyulan vəzifə müdafiə sektorunda Avropa əməkdaşlığını bütün təzahürləri ilə gücləndirməkdir. Bu arada, çıxışın fonunu Aİ rəhbərliyinin arxasında "güclü Avropa"nın tərəfdarı olan prezident Makronun Avropa Komissiyasının sədri Ursula fon der Leyeni əvəz etmək üçün Avropa liderləri ilə danışıqlar apardığına dair fikirlər dolaşır.***

"NATO-nun beyin ölümü" etirafı da daxil olmaqla, hakimiyyəti illərində bir çox yüksək səviyyəli bəyanatlar verən Fransa prezidenti Emmanuel Makron peyğəmbərlik edib: "Növbəti illərdə zəifləmə, hətta məcburi köçürmə riskləri böyükdür. Biz ayıq olmalıyıq, Avropa ölümcüldür və hər an ölə bilər". Prezident öz çıxışında nəinki Köhnə Dünya üçün mümkün apokaliptik ssenarisindən danışıb, həm də müttəfiqlərinə fəaliyyət planı təklif etməyə hazır olduğunu nümayiş etdirib. Əsas tezislər ondan ibarət olub ki, Avropanın ABŞ-dan strateji və texnoloji müstəqilliyinə ehtiyacı var. Makronun sözlərinə görə, avropalılar göstərməlidirlər ki, onlar heç vaxt ABŞ-ın vassalı olmayıblar və dünyanın digər regionları ilə müstəqil dialoq aparmağa hazırdırlar. Emmanuel Makron Rusiya Federasiyasını da onların sırasına daxil edərək deyib: "Təhlükəsizlik sistemimiz Ukraynadakı münaqişə bitdikdən sonra Rusiya ilə qonşuluq münasibətləri qurmağa kömək edəcək".

Prezident xüsusilə qeyd edib ki, biz ümumi təhlükəsizlik sisteminin bərpası üçün şərt olan Avropanın etibarlı müdafiəsi konsepsiyasına üstünlük verməliyik. Önümüzdəki aylarda mən bütün tərəfdaşlarımızı bu Avropa Müdafiə Təşəbbüsünü yaratmağa dəvət edəcəyəm ki, bu, ilk növbədə strateji konsepsiya olmalıdır və bundan sonra müvafiq imkanlar əldə edəcəyik". Makronun deyib ki, "Fransanın müdafiə strategiyasının mərkəzində" nüvə hücumunun qarşısının alınması dayanır ki, bu da bütün Avropa qitəsi üçün "müdafiənin ən mühüm elementi"dir. Məhz bu etibarlı müdafiə sayəsində biz bütün Avropadakı tərəfdaşlarımızın gözlədiyi təhlükəsizlik təminatlarını yarada biləcəyik. O, raketdən müdafiə sisteminin inkişafı, ümumavropa hərbi akademiyasının yaradılması, müdafiə sektorunda öz istehsal proqramının işlənib hazırlanması və davamlı şəkildə maliyyələşdirilməsi, həmçinin kibertəhlükəsizlik kimi "yeni münaqişə zonalarına" investisiyaların artırılması zərurəti haqqında danışıb.

### Zəif, ləng və səmərəsiz Avropa

2017-ci ilin sentyabrında da Makron Sorbonnada eyni mövzuda tələbələr qarşısında çıxış edib. Həmin vaxt da Fransa lideri "Avropanın çox zəif, ləng və səmərəsiz olduğunu" söyləyib və onu necə gücləndirmək üçün bir sıra təkliflər irəli sürüb. İqtisadiyyatı stimullaşdırmaq üçün ümumavropa tədbirlərinə əlavə olaraq, o, təklif edib ki, təhlükəsizlik siyasəti sahəsində "ümumi strateji mədəniyyət", 2020-ci ilə qədər ümumi Avropa çevik reaksiya qüvvələri yaratmaq, habelə ümumi müdafiə büdcəsi və ümumi hərbi doktrina təsdiq etmək lazımdır. Həmin çıxışdan 7 il keçir, amma Makronun ideyaları hələ də həyata keçməyib.

Bu arada, media diqqəti onun çıxışına dəvət edilən Fransa parlamentarilərinin Makronun Avropanın yenidən qurulması ilə bağlı ikinci çıxışını dəyərləndirə bilməmələrinə yönəldib. Prezidentin Sorbonna səfəri Avropa Parlamentinin Strasburqda keçirilən sessiyasının yekun gününə təsadüf edib və bu sessiyada, büdcəyə düzəlişlər, Aİ sərhədlərində nəzarətlə bağlı sənədlərə səsvermə keçirilib. Rusiya Federasiyasında keçirilən prezident seçkilərinin nəticələri də müzakirə mövzularından olub.

"Güclü Avropa"nın tərəfdarı olan Fransa prezidentinin Avropa Komissiyasının sədri Ursula fon der Leyeni əvəz etmək üçün Avropa liderləri ilə gizli danışıqlar aparması faktı ortaya çıxıb. Bloomberg-in mənbələrə istinadən verdiyi məlumata görə, prezident Makron Aİ ölkələrinin nümayəndələri ilə İtaliyanın keçmiş baş naziri və Avropa Mərkəzi Bankının keçmiş sədri Mario Draqinin xanım fon der Leyen vəzifəsinə namizədliyini müzakirə edib. Martın əvvəlində Avropa Xalq Partiyasının qurultayında Ursula fon der Leyen ikinci müddətə Avropa Komissiyasının rəhbəri vəzifəsinə rəsmi olaraq namizəd göstərilib. Bununla belə, artıq mətbuatda onun yenidən seçilməsinə zəmanət verilmədiyinə dair nəşrlər dərc olunub. Beləliklə, "Politico" Avropa rəsmilərinə istinadən Ursula fon der Leyenin ikinci müddətə seçiləcəyinə dair şübhələrini dərc edib. Çünki o, getdikcə səhvlərə görə tənqid olunur.




Makron baş nazirlərlə, o cümlədən İtaliyanın baş naziri Giorgia Meloni ilə AB-də Mario Draqi kimi texnokrat liderin olması imkanını müzakirə edib. Bloomberg onu da qeyd edib ki, prezident Makron Ursula fon der Leyenə təzyiq göstərmək və "gələcəkdə ondan güzəşt ala bilmək" üçün Avropa Komissiyasının hazırkı rəhbərinin dəyişdirilməsi ilə bağlı gizli məsləhətləşmələrə başlamaq istəyib. Ancaq sensasiya cəmi bir neçə saat davam edib. Bloomberg, İtaliya hökumətinin başçısına yaxın mənbələrə istinadən, öz məlumatlarını təkzib edib.

Bəzi KİV-lərdə Fransa prezidenti Emmanuel Makronun baş nazir Giorgia Meloni ilə Aİ rəhbərliyinin gələcək yenilənməsini müzakirə etdiyi iddia edilən məlumatlara gəlincə, bu, tamamilə əsassızdır. Dəfələrlə vurğulandığı kimi, İtaliyanın baş naziri hesab edir ki, Aİ rəhbərliyində gələcək siyasi postların tərkibi ilə bağlı istənilən təmas və müzakirələr yalnız Avropa Parlamentinə seçkilərdən sonra baş tuta bilər.



Bu arada, Avropa Parlamentinə iyunda keçiriləcək seçkilər ərəfəsində prezident Makron və onun Renessans blokunun populyarlığının azalması kontekstində seçicilərin etimadını bərpa etmək üçün yeni yollar axtarır. Belə ki, media prezident Makronun triatlon və üzgüçülük yarışlarını əhatə edəcək qarşıdan gələn Yay Olimpiya Oyunları zamanı Sena çayında üzməyə hazır olacağı barədə yeni bəyanatından sitat gətirib. "Seinadakı su soyuq, lakin təmiz olacaq. Mən bunu şəxsən sübut edə bilərəm", - deyə cənab Makron söz verib. Hazırda Parisdə əlverişsiz ekoloji vəziyyətə görə Sena çayında üzməyə qadağa qoyulub.

### Avropa üçün SOS

Makronun sözlərinə görə, Avropa həm Vaşinqtonun, həm də Pekinin "qlobal ticarət qaydalarına hörmət etmədiyi" bir mühitdə öz yerini tapmalıdır. Fransa lideri Çin və ABŞ-da bir sıra sənayelərin subsidiyalaşdırılmasının nəticəsi olan haqsız rəqabət probleminə işarə edib. Makronun çıxışında xarici siyasət mövzularının üstünlük təşkil etməsi təsadüfi deyildi. Bu, bir çox fransızları narahat edir. Bu, qismən miqrasiya problemi, qismən də Rusiya-Ukrayna və Yaxın Şərq münaqişələri ilə bağlıdır. Millətçi partiyanın lideri Marin Le Penin reytinqinin artması da Makronu narahat edir. Makronun rəqibləri ölkənin dünya miqyasında rolunun gücləndirilməsi zərurətinə müraciət edir və qeyri-qanuni miqrasiya ilə mübarizə üçün ən radikal tədbirlər təklif edirlər. Sorğulara əsasən, Le Penin 2027-ci ildə keçiriləcək növbəti prezident seçkilərində qalib gəlmək üçün real şansı var. Makron artıq onlara qarşı duruş gətirə bilməyəcək. Bununla belə, Le Pen, atası kimi, demək olar ki, bütün siyasi karyerası boyunca prezidentliyə iddialı olsa da, hakimiyyət iddiasından əl çəkmir.

Digər tərəfdən, solçu qüvvələrin nüfuzu artmaqda davam edir. Bir çox fransızlar əhalinin qocalması fonunda pensiya islahatlarının zəruri olduğunu bilsələr də, seçicilərin bir hissəsi Beşinci Respublikada daha erkən pensiyaya çıxmağı təşviq edən pensiya sisteminin qorunub saxlanması ideyasını dəstəkləyirlər. Sosialistlərin reytinqlərinin artması onların nailiyyətləri ilə deyil, daha çox makronistlərin zəifliyi ilə bağlıdır. 2019-cu ildə Avropa Parlamenti seçkiləri öncəsi çıxışı ilə Makron tendensiyanı dəyişdi və səsvermənin nəticələrinə görə fərq 8-9%-dən 1%-ə düşdü. Onun indi bunu edə biləcəyi şübhəlidir. İndi Makron artıq gənc və naşı siyasətçi hesab edilmir və onun daxili siyasi məsələlərdə reytinqini artırmaq üçün resurslar əsasən tükənib. Hökumətin təşəbbüsləri parlamentdə müqavimətlə üzləşir. Həmçinin, gənc Qabriel Attalın baş nazir təyin edilməsi ilə kabinet dəyişikliyinin effekti heç olmadı. Makron üçün təhlükələrdən biri də Li Penin Avropa Parlamentinə seçkilərdə uğur qazanacağı təqdirdə növbədənkənar parlament seçkilərinə start veriləcəyidir.

Makron Avropanı ABŞ-dan asılı olmayan bir güc kimi yaratmağa çağırmağa çalışır. Bu, xarici auditoriyadan daha çox daxili auditoriya üçün bir oyundur. Polşa və ya Baltikyanı ölkələrin ona dəstək verəcəyi ehtimalı azdır. Əksər Avropa ölkələri hələ də ABŞ-a, hətta sağçı qüvvələrə də diqqət yetirir.

***V.VƏLİYEV***







# Türk dünyasının böyük yazıçısı

## Prezident İlham Əliyev: "Çingiz Aytmatovun Bakıdakı abidəsi bizim birliyimizin, dostluğumuzun və qardaşlığımızın rəmzinə çevriləcək"

***Türk dünyasının böyük sənətkarlarından biri, dünyaşöhrətli yazıçı, qırğız ədəbiyyatının görkəmli nasiri, diplomat və ictimai xadim Qırğızıstanın Xalq yazıçısı, çoxsaylı mükafatlar laureatı Çingiz Aytmatov yaratdığı əsərləri və fəaliyyəti ilə özündən sonra imzasını əbədiləşdirmiş simalar sırasında xüsusi yer tutub. Ən yüksək fəxri adlara və mükafatlara layiq görülmüş Çingiz Aytmatov SSRİ ərazisində yaşayan bütün xalqların ən sevimli yazıçısı kimi tanınıb, rəğbət hissi ilə qarşılanıb. Onun əsərləri ötən əsrin 60-cı illərindən ömrünün sonunadək dünyanın hər yerində böyük sevgi və məhəbbətlə oxunmaqla yanaşı, dünya xalqlarının dilinə tərcümə edilib.***

Türk dünyası ədəbiyyatına töhfələr bəxş edən yazıçını Azərbaycan xalqı öz böyük yazıçısı kimi qəbul edir və əsərləri Azərbaycan dilinə tərcümə olunub. Ulu Öndər Heydər Əliyev deyirdi ki, Çingiz Aytmatov bütün türk dünyasının böyük yazıçısıdır. O, hər zaman ədalətin keşiyində dayanan böyük yazıçılardan idi. Çingiz Aytmatov irsi Azərbaycan ədəbiyyatı üçün də bir nümunədir.

### DOSTLUĞUMUZUN, QARDAŞLIĞIMIZIN VƏ BİRLİYİMİZİN DAHA BİR RƏMZİ

Görkəmli yazıçı hər zaman Azərbaycana səfərindən xüsusi qürur hissi keçirib. Ümummilli Lider Heydər Əliyev onun yaradıcılığını hələ ötən əsrin 60-cı illərindən başlayaraq yüksək qiymətləndirib. Çingiz Aytmatov isə Ulu Öndər Heydər Əliyevin türk dünyasının qüdrətli Lideri olduğunu dəfələrlə yazılarında, müsahibələrində diqqətə çatdırıb. Belə bir sənətkarın - Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda onun abidəsi ucaldılıb. Çingiz Aytmatovun bürüncdən hazırlanmış, hündürlüyü 3 metrə yaxın olan heykəlinin çəkisi təqribən 6 tondur. Abidənin önündə Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb. Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak etdilər. "Bu gün Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq münasibətləri tarixində əlamətdar gündür. Bu gün qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun abidəsi açılır. Əminəm ki, bu, dostluğumuzun, qardaşlığımızın və birliyimizin daha bir rəmzi olacaq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Çingiz Aytmatovun abidəsinin açılış mərasimində çıxışında bildirib.

Qeyd edək ki, öz istedadı və insan ruhunu dərindən dərk etmək məharəti ilə dünyamıza işıq salan görkəmli qırğız yazıçısının abidəsinin paytaxtımızda açılışı böyük sənətkara olan məhəbbətdən qaynaqlanmaqla yanaşı, həm də xalqlar arasında dostluğun nümunəsidir.

### AZƏRBAYCAN DÖVLƏTİNİN YÜKSƏK MÜKAFATI OLAN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF OLUNUB

Çingiz Aytmatovun dünyaşöhrətli yazıçı, həyatı boyu həm Sovet İttifaqı məkanında, həm də dünya miqyasında öz xalqını layiqincə təmsil etmiş qırğız xalqının böyük oğlu olduğunu bildirən Cənab Prezident diqqətə çatdırıb ki, Azərbaycanda onun yaradıcılığını sevir və fəal vətəndaş mövqeyinə, milli ruhuna və köklərinə sadiqliyinə görə ləyaqətli insan kimi hörmət bəsləyirdilər: "Xatirimdədir, o, vəfatından bir az əvvəl Azərbaycana səfər etmişdi və mən onunla görüşmək, bir çox məsələlərdə uzun söhbət aparmaq imkanı əldə etdim. Həmin gün mən onu ehtiram əlaməti olaraq və münasibətlərimizin möhkəmlənməsi işində xidmətlərinə görə Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif etdim".

Qeyd edək ki, Qırğızıstanın Xalq yazıçısı, çoxsaylı mükafatlar laureatı Çingiz Aytmatov Qırğızıstanın Şəkər kəndində anadan olub. O, əvvəlcə kənd məktəbində, sonra rayon mərkəzindəki məktəbdə təhsil alıb. İkinci Dünya müharibəsi dövründə - 1943-cü ilin yayında adamların çoxunun cəbhəyə getməsi nəticəsində kənddə kişilərin sayı azalanda 15 yaşlı Çingiz Şəkər Kənd Sovetinin katibi təyin edilib. Sonralar o, Cambulda zoobaytarlıq texnikumunda, habelə Qırğızıstan Kənd Təsərrüfatı İnstitutunda təhsil alıb, 1953-cü ildə oranı bitirib.

### ZƏNGİN VƏ ÇOXŞAXƏLİ FƏALİYYƏT

Moskvada Ali Ədəbiyyat kursunu bitirdikdən sonra Bişkek şəhərində jurnalist kimi fəaliyyətə başlayan Çingiz Aytmatov 1958–1960-cı illərdə "Literaturniy Kırqızstan" jurnalının redaktoru olmuş, 1960–1965-ci illərdə "Pravda" qəzetinin Orta Asiya və Qazaxıstan üzrə xüsusi müxbiri vəzifəsində çalışmışdır. Böyük Vətən Müharibəsi illərində Aytmatov kənd sovetinin katibi, mühasib, gecələr isə traktorçu briqadasında çalışmalı olmuşdur,

Böyük istedada sahib olan yazıçının "Cəmilə" povesti Avropada dərc edildində Qərb oxucuları bu əsərdə insan xarakterində həssaslığın bədii boyalarla ustalıqla verilməsinin şahidi olublar. "Cəmilə" romanı ədəbi ictimaiyyət və oxucular arasında geniş əks-səda yaradıb,"dünyanın ən gözəl eşq hekayəsi" adlandırılıb.

Sonralar Çingiz Aytmatov qırğız mövzusunu daha dərindən mənimsəyib. "Qırmızı yaylıqlı qovağım mənim", "Köşək gözü" əsərlərini də məharətlə işləyib, obrazların daxili aləminə nüfuz etməyi bacarıb. 1963-cü ildə yazdığı "Ana tarla" povestində şərtilik



və həyati reallıq üzvi şəkildə birləşib. "Ağ gəmi", "Dəniz kənarıyla qaçan Alabaş", "Gün var əsrə bərabər" romanlarında yazıçı dövrün kəskin fəlsəfi, etik və sosial problemlərinə toxunub. Ötən əsrin 80-ci illərinin əvvəlində yazdığı "Ölüm kötüyü" əsəri İnsan və Təbiət münasibətlərindən, həyatın mənasından, dinin insanları yaxşılığa doğru dəyişməsindən, müasir dövrün bəlası olan narkomaniya və digər məsələlərdən bəhs edir.

1990–1994-cü illərdə Aytmatov SSRİ-nin və sonradan Rusiyanın Benilüks ölkələrində-ki səfiri vəzifəsində çalışıb. Aytmatov 2008-ci ilin martınadək Qırğızıstanın Fransada, Belçika, Lüksemburq və Niderlanddakı səfiri olub. Çingiz Aytmatov SSRİ Ali Sovetinin deputatı, Qırğızıstan Kommunist Partiyasının Mərkəzi Komitəsinin üzvü, Yazıçılar İttifaqının və Kinematoqrafçılar İttifaqının katibliyinin üzvü, Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin rəhbərlərindən biri, "Xarici ədəbiyyat" jurnalının baş redaktoru, "İssık-kul forumu" adlı beynəlxalq intellektual hərəkatın təşəbbüskarı idi. 2006-cı ildə "İlin avtoqrafı" kitabının buraxılışında iştirak edib. Çingiz Aytmatov 1968-ci ildə Qırğızıstanın Xalq yazıçısı, 1974-cü ildə isə ölkəsinin Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Çingiz Aytmatov 1984-cü ildə Avropa Elm və Sənət Akademiyasının üzvü seçilmişdir.

Belə bir sənətkarın və ictimai-siyasi xadimin abidəsini paytaxtımızda ucaldılması ona olan ehtiramın, məhəbbətin nümunəsidir.

### HƏM QIRĞIZISTANIN, HƏM DƏ BÜTÜN TÜRK DÜNYASININ QÜRURU

Qırğızıstan Prezidenti ölkəsi adından Azərbaycan Prezidentinə Çingiz Aytmatova olan ehtiramına görə təşəkkürünü bildirərək bu abidənin Çingiz Aytmatovun yaradıcılıq irsinə böyük hörmət və ehtiramın ifadəsi olduğunu diqqətə çatdırıb: "Azərbaycan tərəfi ölkələrimiz arasındakı mədəni əlaqələrə böyük diqqət yetirir. Bu, xalqların yaxınlaşması baxımından son dərəcə vacibdir. Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi münasibətlərimizdə əlamətdar hadisədir. Biz bilirik ki, Çingiz Aytmatov Azərbaycanın böyük dostu idi və onun Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə dostluğunu xüsusilə vurğulamaq istərdim. Onların münasibətləri unikal və dayanıqlı idi. Hər iki şəxsiyyət tarixdə silinməz izlər qoyub. Heydər Əliyev onu yazıçı və ziyalı şəxs kimi yüksək qiymətləndirirdi. O deyirdi ki, dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş edən Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün Türk dünyasının qürurudur. Azərbaycan Prezidentinin Qırğızıstana ilk səfəri 1995-ci ildə Heydər Əliyev tərəfindən, "Manas" dastanının 1000 illik yubileyinin qeyd edilməsi məqsədilə həyata keçirilib.

### "TƏKCƏ YAZIÇI KİMİ DEYİL, HƏM DƏ İCTİMAİ XADİM KİMİ KEÇMİŞ SSRİ MƏKANINDA VƏ DÜNYA MİQYASINDA BÖYÜK HÖRMƏT QAZANMIŞ ŞƏXSİYYƏT İDİ"

Azərbaycan Prezidenti onun hər zaman haqq-ədalətin tərəfində olduğunu bildirərək, qeyd edib ki, o, təkcə yazıçı kimi deyil, həm də ictimai xadim kimi keçmiş SSRİ məkanında və dünya miqyasında böyük hörmət qazanmış şəxsiyyət idi və onun xatirəsi, əlbəttə ki, qırğız xalqının, bütün qardaş xalqların qəlbində yaşayır: "Mən Qırğızıstanda dövlət səfərində olarkən onun məzarını ziyarət etdim və Azərbaycan xalqının onun xatirəsinə olan dərin ehtiramını bildirdim. Əlamətdar haldır ki, abidə Qırğızıstan Prezidentinin dövlət səfəri çərçivəsində açılır".

### "TÜRK DÜNYASI ÖZ LAYİQLİ NÜMAYƏNDƏSİ İLƏ FƏXR EDİR"

"Çingiz Aytmatovun Bakıdakı abidəsi bizim birliyimizin, dostluğumuzun və qardaşlığımızın rəmzinə çevriləcək. Həm də demək istərdim, əminəm ki, bütün Türk dünyası öz layiqli nümayəndəsi ilə fəxr edir və əlbəttə, hamımızın təəssüfləndiyimiz yeganə məqam onun dünyasını çox tez dəyişməsidir. Bu, çox gözlənilməz oldu, artıq qeyd etdiyim kimi, mən onunla Bakıda onun vəfatından bir qədər əvvəl, demək olar ki, bir neçə ay əvvəl görüşmüşəm və o, həmişə olduğu kimi, enerji ilə dolu idi və yaxşı görünürdü, öz planlarından danışırdı. 2008-ci il idi, amma mən bu görüşü dünən kimi xatırlayıram" – deyə Prezident bildirmir. Əlbəttə ki, Azərbaycan ilə Qırğızıstan arasında möhkəm dostluq münasibətlərinə kimsə kölgə sala bilməz. Bu sarsılmazdır, tarixi köklərə bağlı olan xalqlarımızın dostluğunun və qardaşlığın təzahürüdür.

Abidənin Bakıda ucaldılması Qırğızıstanın və Azərbaycanın qardaş xalqları arasında dərin bağlılığın rəmzidir.

**Zümrüd BAYRAMOVA**

# Böyük ziyalı, unudulmaz alim – Zərifə xanım Əliyeva

***Bu gün Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə Əliyevanın anadan olmasının 101 illiyi tamam olur. Bu xeyirxah, mehriban, səmimi İnsanı tanıyan hər kəsin yaddaşında o, Azərbaycan ziyalı qadınının ən gözəl simalarından biri olaraq həkk olunub. Zərifə xanım Əliyevanın xarakterində məsuliyyət, zəhmətkeşlik və xeyirxahlıq kimi böyük xüsusiyyətlər cəmləşmişdir. Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin övladı olmaq kimi böyük bir məsuliyyəti şərəflə daşıyan Zərifə xanım Əliyeva, həm də həkim və alim kimi nümunəvi fəaliyyəti ilə fərqlənmiş, oftalmologiya tarixinə adını qızıl hərflərlə yazmışdır.***



Görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyevanın həyat yolu hər bir Azərbaycan vətəndaşı, alimi və həkimi üçün mənəviyyat dərsi, kamillik məktəbidir. Zərifə xanım gözəl tədqiqatçı, Ulu Öndər Heydər Əliyevin ömür yoldaşı, sadiq dost, övladlarına qayğıkeş ana və nənə, eləcə də əsl insanlıq nümunəsi kimi ismi xüsusi vurğulanır. Zərifə xanımın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım xalqına ləyaqətlə xidmət edən parlaq simaya çevrilib. Öz parlaq istedadını zəhməti ilə vəhdətdə ortaya qoyan Zərifə xanım elm, ədalət, səxavət, səbr, ismət kimi keyfiyyətləri əməli fəaliyyətində və özündə birləşdirib. Zərifə xanımın zəngin və şaxəli həyat yoluna nəzər saldıqda bu həyat yolunda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqətdən yayınmır. Bir ana ömrü, tədqiqatçı ömrü, həkim ömrü, alim ömrü. Bu keyfiyyətlər və dəyərlər məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarları və zəkası ilə qaranlıq dünyalara şəfa verdi.

## GƏLƏCƏK TALEYİNİ TİBB ELMİNƏ BAĞLAYAN ZİYALI

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda, ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi. 1968-ci ildən başlayaraq, Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayır. Eyni zamanda, O, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirirdi. Zərifə xanım bu problem üzərində iş apararkən, çox vaxt, bilavasitə sənaye müəssisələrində olaraq, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi.

## "ALİM KİMİ ZƏRİFƏ XANIM ÇOX BÖYÜK ZİRVƏLƏRƏ ÇATA BİLMİŞDİR"

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil edir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilir. Elmi tədqiqatların nəticəsi olaraq, Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən, "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail olur. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü görür. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülür. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Zərifə xanımın, sözün əsl mənasında, böyük həkim olduğunu bildirmişdi: "O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir".

## "HƏKİM XEYİRXAH İNSAN OLMALIDIR"

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Görkəmli alim, ictimai xadim, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatı laureatı Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Zərifə Əliyevanın Azərbaycan EA-nın akademiki seçilməsi Onun böyük xidmətlərinin, çoxillik səmərəli elmi tədqiqat işinin etirafıdır.

Akademik Zərifə Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi.

## DOĞMA SƏSİN ÖMRÜ-GÜNÜ BƏZƏR

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ANA olmasından irəli gəlirdi.

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.
Gülər üzlü, qara gözlü anam,
Hara getsəm gözün mənə baxar.
Ana qəlbin layla olar gəzər,
Doğma səsin ömrü-günü bəzər.

Zərifə xanım Əliyeva işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssaslığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Ümumiyyətlə, Zərifə xanımın həyatı Azərbaycan qadınları üçün bir məktəbdir. Elə bir məktəbdir ki, uzun illər boyu öyrəniləcəkdir. Unudulmaz və əziz xatirəsinin yad etdikcə bu parlaq Şəxsiyyətin elmimizə, səhiyyəmizə, milli və mənəvi varlığımıza bəxş etdiyi dəyərləri təkrarən dərk edirik.

## "ZƏRİFƏ XANIM KİMİ HƏYAT YOLDAŞIM OLDUĞUNA VƏ O, AİLƏMDƏ ÇOX YÜKSƏK MƏNƏVİ MÜHİT YARATDIĞINA GÖRƏ MƏN XOŞBƏXT OLMUŞAM"

Zərifə xanımın ömür-gün yoldaşı dünya şöhrətli Şəxsiyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycan qadınları haqqında deyirdi: "Azərbaycan qadını mərd, sədaqətli, qeyrətli, namuslu qadındır. Mən dünyanın çox yerini gəzmişəm, dünya qadınlarını görmüşəm, fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir". Həqiqətən də Azərbaycan qadınları dünyada yaxşı nə varsa ona layiqdir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib"

Zərifə xanım Azərbaycan xalqına məxsus, milli-mənəvi, əxlaqı dəyərləri özündə cəmləşdirmiş bir Ana idi. İşinin çox olmasına baxmayaraq, Zərifə xanımın gözəl övladlar yetişdirməsi və ictimai fəaliyyəti bu gün də örnək olacaq bir fəaliyyətdir. O, əməli işin xoş təəsüratları ilə hamının qəlbində daim yaşayır və yaşayacaqdır.

***ZÜMRÜD BAYRAMOVA***

# Aqressiv revanşistlər: Sirkə nə qədər tünd olsa...




Ermənistan rəsmilərinin son aylardakı açıqlamaları sübut edir ki, İrəvan artıq Azərbaycanla yekun sülh sazişini imzalamaqdan başqa yolunun olmadığını anlayır. İrəvan Azərbaycanla sərhədlərin dəqiqləşdirilməsi, kommunikasiyaların bərpası istiqamətində praktik addımlar atılmasının qaçılmaz proses olduğunu qəbul etdi. Başqa yolu yoxdur. Ermənistan Qərbdəki havadar-larından dəstək ala bilmədi, rəsmi Bakı həmin ölkələrin ölkəmizə qarşı əsassız təzyiq cəhdlərini inamla zərərsizləşdirdi.





Antiterror tədbirlərindən sonra ölkəmizə qarşı təzyiq cəhdləri sıradan çıxdı, beynəlxalq ictimaiyyətdən gözləntilər özünü doğrultmadı. Fransa–Ermənistan tandeminin əsassız iddialarla BMT-nin Təhlükəsizlik Şurasında ölkəmiz əleyhinə qərarların qəbuluna yönələn səyləri iflasa uğradı. Beləliklə, Ermənistan hakimiyyəti Qərbdəki havadarlarına arxalanaraq, sülh gündəliyinə xələl gətirən, prosesi süni şəkildə yubadan addımların mənasızlığını dərk etməli oldu.

Aprelin 19-da Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimita-siyası üzrə Dövlət Komissiyasının, eləcə də delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü iki ölkə arasında uzun illərdən bəri davam edən gərginliyin azaldılması, yekun sülh sazişi layihəsi üzərində aparılan işin sürətləndirilməsi baxımından önəmli addım oldu. Əldə olunmuş razılaşmaya əsasən, sərhəd xətti Bağanis (ER) – Bağanıs Ayrım (AR), Voskepar (ER) – Aşağı Əskipara (AR), Kirants (ER) – Xeyrimli (AR) və Berkaber (ER) – Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçəcək. Beləliklə, Qazax rayonun işğal altında olan 4 kəndi birinci mərhələdə Azərbaycana təhvil verilir. Tərəflər sərhədin bütün digər hissələrinin, o cümlədən anklav və eksklav məsələləri üzrə delimitasiya prosesini davam etdirmək barədə də razılığa gəliblər.

Erməni istehkamçılar aprelin 22-dən Aşağı Əskipara kəndində Müqəddəs Məryəm kilsəsi ilə bitişik ərazilərdə sərhədləri daha da dəqiqləşdirmək məqsədilə minalardan təmizləmə işlərinə başlayıblar. Erməni mətbuatının yaydığı məlumatlara görə, Azərbaycanla delimitasiya nəticəsində yeni sərhəd Ermənistan tərəfinin nəzarətində qalacaq kilsənin yaxınlığından keçəcək. Artıq Azərbaycanla Ermənistan arasında sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesi çərçivəsində ilk sərhəd dirəyi quraşdırılıb. Bu barədə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin xidməti media üçün məlumat yayıb. Qeyd olunub ki, iki ölkənin ekspert qruplarının işi davam edir.

Bəhs olunan kəndlərin ölkəmizə qaytarılmasını müxtəlif baxış bucaqlarından dəyərləndirmək mümkündür. Burada razılaşmanın kənar güclərin iştirak etmədiyi görüşdə əldə olunması mühüm əhəmiyyət daşıyır. Bu razılaşma və qısa zaman kəsiyində kəndlərin təhvil verilməsi üçün işlərə başlanılması sülhün gerçəkləşməsi üçün zəmin formalaşdırmaqla yanaşı, manipulyasiyalarla bu prosesə əngəllər yaradan bəlli mərkəzlərə tutarlı cavab oldu.

Təəssüflər olsun ki, Azərbaycanın Qazax rayonunun 4 kəndinin geri qaytarılması ilə bağlı əldə edilən razılıqdan sonra Ermənistandakı revanşist qüvvələr hakimiyyətə qarşı etirazlar təşkil etməyə başlayıblar. Revanşistlər bu razılaşmanı həzm edə bilmir və Paşinyan hakimiyyətini "qorxaqlıqda" və "satqınlıqda" ittiham edirlər. Etiraz aksiyaları tərəflər arazında razılaşmanın əldə edildiyini gündən başlayıb. Məsələn, adıçəkilən regionda yaşayan bir qrup erməni kəndlərin Azərbaycana qaytarılmasına qarşı çıxıb. Vəziyyət aprelin 22-də polislə qarşıdurmaya qədər kəskinləşib. Erməni əhalisi Tavuşda minalanmış sahələrin təmizlənməsinin qarşısını almaq üçün öz mövqelərinə basqın ediblər. Bir neçə gündür davam edən bu etirazlar hətta qarşıdurma səviyyəsinə çatdırılıb. Revanşist müxalifət tərəfindən məqsədli və sülhə mane olmaq üçün qızışdırılan əhalinin minalardan təmizləmə işinə mane olmasının qarşısını almaq üçün minalardan təmizləmə işlərinin başlandığı ərazidə polislər canlı divar düzəldiblər.

Azərbaycanla sərhədlərin delimitasiyasına qarşı çıxan 7 nəfər saxlanılıb. Bu barədə Ermənistan İstintaq Komitəsi məlumat yayıb. Bildirilib ki, Ermənistanın Tavuş vilayətində Gürcüstanla dövlətlərarası avtomobil yolunun bağlanması zamanı xuliqanlıq etməkdə şübhəli bilinən 7 nəfər saxlanılıb. Sakinlərlə danışıqlardan sonra onlar yolu açmağa razılaşıblar. Revanşistlərin qızışdırdıqları Kirants kəndinin bəzi sakinləri də ərazilərin minalardan təmizlənməsinə mane olurlar. Ermənistan-Gürcüstan dövlətlərarası yolunu kəsən etirazçılar isə magistralda tonqal qalayıblar və gecəni orada keçirəcəklərini bəyan ediblər. Yayılan son məlumatlara görə isə, Ermənistan polisi Bağanis Ayrımdan Əskiparaya (Voskepar) gedən yolu bağlayıb. Kənd sakinləri yolun açılmasını tələb ediblər. Erməni mətbuatının məlumatına görə, artıq faktiki olaraq Bağanis Ayrım ərazisində demarkasiya işləri aparılıb və erməni avtomobillərinin bu yolda hərəkət etmək hüququ məhdudlaşdırılıb. Ermənistan hökuməti qəbul edilmiş qərarı pozmaq niyyətində görünmür. Artıq Tavuş vilayətində minatəmizləmə işlərinə başlanılıb. Erməni mediasının məlumatına görə, əraziyə 25 nəfərədək minaaxtaran cəlb olunub. Azərbaycanla sərhədin delimitasiyası çərçivəsində minalardan təmizlənməsinə başlanılan əraziyə polis əməkdaşları cəlb olunub. Baş nazir Nikol Paşinyan isə Ermənistanla Azərbaycan arasında Dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi komissiyasının nəzdində işçi qrupları yaradıb.

Ermənistan və oradakı revanşistlər anlamalıdırlar ki, xarici güclərin təhriki və ya təzyiqi yalnız bu ölkənin zərərinə işləyir. Onların məqsədi Hayastanı regional layihələrdən kənarda "kölə" kimi saxlamaqdır. Ermənistan sözün əsl mənasında, siyasi, iqtisadi, sosial və bütövlükdə, azadlıq əldə etmək istəyirsə Azərbaycanla sülh bağlamalıdır. Başqa yol yoxdur. Əks təqdirdə məşhur Azərbaycan məsələsində deyildiyi kimi "Sirkə nə qədər tünd olsa öz qabını çatladar."

***Yaqut Ağaşahqızı***

# "Senzura müəyyən çərçivədə ola bilər"

"Senzura dedikdə kütləvi informasiya vasitələrində yayımlanan materialların məzmunu ilə bağlı, eyni zamanda ayrı-ayrı yaradıcı insanların bədii yaradıcılığındakı məzmunla bağlı dövlət nəzarətinin həyata keçirilməsi nəzərdə tutulur". Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, sosioloq Ağasəlim Həsənov deyib. O bildirib ki, yayımlanan material, məlumat, informasiya və bədii əsər özündə bir məzmun daşıyır: "O məzmun ola bilsin ki, tarixi dövr etibarilə mövcud siyasi rejimin siyasi-ideoloji maraqlarına zidd olduğu üçün belə bir senzura həyata keçirilir. Dövlət həmin senzuranı qoymaqla bu tipli yayımların qarşısını alır. Senzuranın meydana çıxması bu səbəbdəndir.

Məsələyə tarixi aspektdən də yanaşmaq olar. Tarixi aspektdən yanaşdıqda hansı ölkə üçün, hansı tarixi dövrdə senzura daha çox aktuallıq kəsb edib, bu senzuranın ölkə, həmin cəmiyyət üçün müsbət və mənfi tərəfləri nədən ibarət olub? Bu da çox geniş mövzudur. Məsələyə sosioloji aspektdən yanaşdıqda isə senzuranın cəmiyyətdə necə qarşılanması müzakirə predmetinə çevrilir. Müəyyən tarixi dövrlərdə senzura tətbiq olunur. Senzuranın tətbiq olunması cəmiyyətə nə kimi fayda və ya zərər verə bilir, eyni zamanda senzuranın tətbiq olunmasından fərdlər, toplum nə dərəcədə məmnun, narazı qalır, buna baxmaq lazımdır. Bunlar həm tarixi, həm də sosioloji aspektdən çox geniş mövzudur.

Azərbaycana gəldikdə isə tarixi dövr baxımından, məsələn XX əsrin 20-ci illərindən sonra 1991-ci ilə kimi çox kəskin senzura rejimi tətbiq olunmuşdu. Sovetlər Birliyi tərəfindən 15 Respublikanın hər birinə kəskin senzura tətbiq olunurdu. Bu da həm kütləvi informasiya vasitələrində, həm də yaradıcı insanların bədii yaradıcılığında təsirini göstərirdi. Demək çətindir ki, senzuralar cəmiyyət həyatı üçün nə kimi müsbət və mənfi nəticələr doğururdu. Amma Sovet Azərbaycanı dövründə dövlət tərəfindən tətbiq olunan senzuranın azad cəmiyyətin formalaşmasına çox böyük mənfi təsiri var idi. Kütləvi informasiya vasitələrində azad fikrə yer yox idi, müxalif mövqedə olan partiyanın olması mümkün deyildi. Əgər belə hallar olarsa, kəskin repressiyalar, həbslər, ciddi cəza mexanizmləri işə düşürdü. Bütün Sovet vətəndaşları həmin senzuradan zərər çəkmiş olurdular".

"Senzura müsbət dəyərləndirilə bilməz. Çünki kəskin senzuranın tətbiq olunması yaradıcı insanların fəaliyyətinə, yaradıcılığına, azad fikir ifadə etməsinə mane olur, çətinliklər yaradır. Beləcə fərdlərdə olan potensial kəskin senzura səbəbindən çiçəklənə bilmir. Bəlkə də, bir rəssam elə əsər yarada bilər ki, bütün tarix boyu aktual olar. Amma senzura səbəbindən onu yarada bilmir. Öz düşüncələrini açıq şəkildə ifadə edə bilməyən, senzura səbəbindən tam məzmunlu potensialını ortaya qoya bilməyən yaradıcı insanlar kəskin senzuralı cəmiyyətlərdə bəzən yaşamaqdan imtina edirlər və mühacirət də edə bilirlər. Daha azad mühit axtarırlar. Senzuranın olmadığı, zəif olduğu cəmiyyətlərə üz tuturlar ki, potensiallarını ortaya qoysunlar.

Digər tərəfdən cəmiyyətdə mənəvi-əxlaqi baxımından aşınmalara səbəb ola biləcək televiziya proqramlarının, saytlarda, qəzetlərdə yayımlanacaq hər hansı müzakirəyə səbəb ola biləcək materialların yayımlanmasında, düşünürəm ki, senzura olmalıdır. Çünki senzura məhz bu kimi halların qarşısının alınmasına yönəlməlidir. Cəmiyyətdə bir qrup mədəniyyət daşıyıcısı hərəkət və davranışları ilə cəmiyyət üçün mənəvi deqradasiyaya səbəb ola biləcək davranışlar ortaya qoyurlarsa, bunlar yeniyetmələr, gənclər üçün "nümunə" ola bilir. Gənclər də submədəniyyət nümunələrinə baxaraq mənəvi deqradasiyaya məruz qalırlar. Əslində əxlaqi baxımdan norma qəbul edilə bilməyəcək hər hansı davranışları cəmiyyət həyatında azad şəkildə ifadə etməkdən çəkinmirlər. Sanki "mənim azadlığım var, mən nə istəsəm edə bilərəm" kimi düşüncəyə sahiblənirlər.



MÜNASİBƏT

Hər bədii əsər, incəsənət nümunəsi kütləvi informasiya vasitələrində yayımlanan materiallar özündə bir mənəvi-əxlaqi baxımdan məzmun daşıyıcısı olmalıdır. Müəllif iddia etsə ki, bu, onun düşüncələridir, cəmiyyətə nə kimi faydalı olmaq istəyir, əlbəttə ki, burada dövlətin, cəmiyyətin maraqları nəzərə alınmalıdır. Hər bir yaradıcı insan da öz yaradıcılığında milli-mənəvi dəyərlərin qorunması prinsiplərinə sadiq qalmalı, bunu nəzərində tutmalıdır.

İstər yaradıcı insanlar üçün, istərsə də sadə insanlar üçün azadlıq bir şəkildə çərçivəlidir. Məşhur alman sosioloqu Erix Frommun məşhur ifadəsi var ki, "Azadlıq məsuliyyət doğurur". Onun "Azadlıqdan qaçma" adlı əsəri də var. Bu o deməkdir ki, insan azadlığa meyl edir, azad olmaq istəyir. Azadlığın ona verdiyi imkanlardan istifadə edərək özünü daha açıq şəkildə ifadə edə bilir. Bununla bərabər azadlıq həm də məsuliyyət doğurur. Sadə və yaradıcı insanlar bunu nəzərlərində tutmalıdırlar. Əgər bu prinsiplər cəmiyyətin mənəvi-əxlaqi dəyərlər sisteminə ziddirsə, müəyyən senzuraların olması mümkündür. Senzura müəyyən çərçivədə ola bilər.

Amma total şəkildə hər şeyin dövlət nəzarətinə götürülməsi, total senzuranın həyata keçirilməsi necə ki, Sovet Azərbaycanı dönəmində tarix olaraq yaşamış olduq, düşünürəm ki, o cür senzuranın tətbiq olunması Azərbaycana, istənilən cəmiyyətə zərər vermiş olar" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# “Qafqazda Rusiyanın yeganə sabit tərəfdaşı Azərbaycandır”

***Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko “Moskva-Baku” portalına müsahibəsində Bakı və İrəvanın Rusiya ilə münasibətlərdə prinsipial şəkildə fərqli yanaşmalarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***





**- Aleksey Valeriyeviç, sizcə, Azərbaycan prezidentinin Moskvaya səfəri nəyi nümayiş etdirdi? Və burada sual yaranır: əgər Ermənistanın baş naziri yaxın günlərdə Rusiya paytaxtına səfər edərsə, Rusiya-Ermənistan münasibətləri üçün hansı nəticə ola bilər?**

- İlham Əliyevin Moskvaya səfəri bir daha sübut etdi ki, Rusiya-Azərbaycan münasibətlərində daha çox müsbət tendensiyalar yaranır. Deyə bilərik ki, bu gün münasi-



bətlər yeni mərhələni yaşayır: həmişə kölgədə qalan ərazi, Qarabağ problemi nəhayət ki, həllini tapıb. Moskva və Bakı üçün bu, mahiyyətcə mənfi bir problem idi. Və onun həlli bizə imkan verdi ki, ikitərəfli münasibətlərə və həqiqətən mühüm birgə layihələrə, o cümlədən regional və qlobal səviyyədə daha çox vaxt ayıraq. Bu gün Moskva və Bakı bir-biri üçün həqiqətən çox vacib tərəfdaşlardır.

İki ölkə liderləri Kremldə Şimal-Cənub layihəsinin həyata keçirildiyini bəyan ediblər. Bu, həm praktiki baxımdan, həm də imic baxımından Rusiya üçün həqiqətən mühüm layihədir. Azərbaycan üçün də onun mühüm perspektivləri var, çünki ölkə özünü mühüm nəqliyyat qovşağı, Şərqlə Qərbin kəsişmə nöqtəsi kimi göstərir.

Bundan əlavə, İlham Əliyev bu yaxınlarda çox mühüm bəyanat verdi ki, Rusiya sülhməramlılarının Qarabağdan çıxması Azərbaycanla Rusiya arasında münasibətləri daha da gücləndirdi.

Rusiya Qarabağdan sülhməramlılarını çıxararaq indi Azərbaycan və Ermənistana sərhədlərin delimitasiyası məsələsini birbaşa özləri həll etmək imkanı verir.

Rusiya və Azərbaycan liderlərinin birbaşa təmasları göstərdiyi kimi, bunda maraqlı olan qüvvələr nə qədər çalışsalar da, Moskva ilə Bakını qarşıdurmaya gətirmək mümkün deyil. Ona görə də ölkələri sıxışdırmaq istəyənlərin diqqəti Rusiya-Ermənistan münasibətlərinə keçib. Burada mübahisə planı kifayət qədər uğurla həyata keçirilir. Bu, çoxdan Qərbin istifadə etdiyi yeni xəritədir.

Bu, bir daha təsdiqləyir ki, Azərbaycan bu gün Rusiya üçün şəffaf, etibarlı tərəfdaşdır. Biz birlikdə irəliləyirik.

Əliyev ötən gün bildirib ki, Azərbaycan Ukraynaya silah vermir və bunu prinsipcə edə bilməz. Bu, bir daha İlham Əliyevin prinsipial insan olduğunu, həm də Rusiya ilə münasibətlərin onun üçün önəmli olduğunu sübut edir. Bundan əlavə, öz regionunda və onun hüdudlarından kənarda həmişə sülh uğrunda mübarizə aparan Azərbaycan vəziyyəti sarsıtmaq və münaqişələri gərginləşdirmək üçün regiondankənar oyunlarda iştirak etməməkdə çox müdrikdir. Azərbaycan beynəlxalq hüququn prinsiplərinin qızğın tərəfdarıdır.

Amma Ermənistandan Qərbin ardınca getməyəcəyini və Ukraynaya nəsə təchiz etməyə başlamamasını gözləmək mümkün deyil. Belə bir şey olsa, təəccüblü olmazdı. Əbəs yerə deyil ki, Azərbaycandan fərqli olaraq, Qərb platformalarında Ermənistan rəsmiləri Ukraynanın xeyrinə bəyanatlar verirlər, halbuki sadəcə olaraq, susmaq olardı.

Bu gün Cənubi Qafqazda yalnız Azərbaycan Rusiyanın yeganə sabit tərəfdaşıdır.

Soruşdunuz ki, Paşinyanın Moskva səfəri necə ola bilər? Düşünürəm ki, bu, çox mübahisəli səfər ola bilər. Ermənistanın baş naziri Qərb kuratorlarının tələbi ilə açıq şəkildə anti-Rusiya bəyanatları səsləndirməklə Rusiya ilə Ermənistan arasında daha da gərginlik yaradacaq addımlar ata bilər. İki ölkə arasında münaqişəni Ermənistanın deyil, Rusiya başlatdığını göstərmək üçün. Yəni, belə- “Ermənistan KTMT-dən getmədi, KTMT Ermənistanı tərk etdi”. Amma o, bunu yalnız o halda edəcək ki, Qərbdə ona real təhlükəsizlk təminatları veriləcəyinə əmin olsunlar.

Rusiyanın Ermənistana diplomatik dəstəyi getdikcə azalacaq. Qərbin Ermənistana nə dərəcədə tam dəstək vermək istəyi var, məncə, hələ də böyük sualdır.

Paşinyan ona tapşırılan vəzifəni- Ermənistanı KTMT-dən çıxarmağı həll etməlidir. Eyni zamanda ölkədə, o cümlədən gənclər arasında anti-Rusiya əhval-ruhiyyəsi yaratmağı.

Hesab edirəm ki, İrəvanı ağıllandırmaq üçün edilən bütün cəhdlərin nəticəsiz olduğu aşkardırsa, Rusiya və Azərbaycan regionun digər ölkələri ilə birlikdə birləşməli və Cənubi Qafqazda yaranan status-kvonu məqbul hesab etdikləri tezisləri ilə çıxış etməlidirlər. Və onlar NATO-nun bölgədəki mövcudluğunun fəal şəkildə genişləndirilməsinin əleyhinədirlər. Azərbaycan üçün Azərbaycan-Türkiyə münasibətlərinin xüsusi xarakterini nəzərə alaraq bunun Türkiyəyə aid olmadığını qeyd etmək olar.

**-Azərbaycan və Ermənistan sərhədlərin delimitasiyası prosesinə başlayıb. Amma yenə də diqqəti cəlb edir: ya Ermənistanın baş naziri vaxtaşırı Azərbaycanı tənqid edir, ya da tezisini təkrarlayır ki, Ermənistan keçmişlə yaşamağı dayandırıb bu günü qəbul edib, qonşuları ilə sülh şəraitində yaşamalıdır...**

- Sərhədin delimitasiyası prosesinin başlamasına gəlincə, gözləyək, görək proses necə inkişaf edəcək. İrəvanın burada hansı təxribat törədə biləcəyini hələ bilmirik. Rəsmi İrəvanın kifayət qədər ziddiyyətli tezislər səsləndirməsi, məncə, bilavasitə Qərbin Ermənistana dəstəyinin dərəcəsindən asılıdır. Nikol Paşinyan Alyansın ona kömək edəcəyini düşünürsə, davakar bəyanatlar verməyə başlayır. Buna şübhə edəndə isə geri çəkilir.

Məncə, Qərb bu gün Ermənistana qeyd-şərtsiz və qüsursuz dəstək vermir. Qərb, mənim fikrimcə, daha çox onun çiynini sığallamağa, onun necə böyük oğlan olduğunu deməyə çalışır. İrəvan Rusiya ilə, Azərbaycanla, Türkiyə ilə əsl gərginliyə getmək istəmir və Qafqazda hərbi münaqişənin onun üçün fəlakət olacağını anlayır.

Eyni zamanda, mən hələ də bu fikirdəyəm ki, Paşinyan Qərblə yaxınlaşmaqla regionda təhlükəsizliyi pozmaq baxımından nə qədər təhlükəli olsa da, əsas odur ki, Ermənistanda Rusiya və Azərbaycana münasibətdə daha radikal olanlar hakimiyyətə gəlməsin, hansı ki, Qarabağa görə qisas almağa meyllidirlər. Hazırda belə bir təhlükə var.

***Tərcümə - Elçin Bayramlı***

# “Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən hesab olunur”

**“COP29 qlobal iqlim dəyişikliyi ilə bağlı keçirilən dünyanın ən mühüm tədbirlərindən biridir. Bu gün qlobal iqlim dəyişikliyi dünyanın bütün ölkələrini bu və ya digər dərəcədə təhdid edir və ərzaq məhsulları qıtlığı, ekoloji problemlərlə bağlı çox böyük fəsadlar yaradır”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Hikmət Babaoğlu deyib.**




Deputat bildirib ki, iqlim dəyişikliyinə qarşı bütün dünyanın səfərbər olması və lazımi işlərin görülməsi olduqca aktual məsələdir: “2015-ci ilin dekabr ayında BMT iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına üzv olan ölkələrin konfransı keçirildi və dünya ölkələrinin bu problemə qarşı birgə mübarizə aparmaları ilə bağlı razılıq əldə olundu. Nəhayət, dünyanın 171 ölkəsi bu sənədə imza ataraq, prosesdə birgə səy göstərməyə hazır olduğunu bildirdi. Artıq 29-cu belə tədbir keçiriləcək. Bu il isə mühüm əhəmiyyətli konfrans ölkəmizdə baş tutacaq və 30-dan çox ölkənin tədbirə qatılması gözlənilir. Nəzərə almaq lazımdır ki, tədbirə qatılanlar içərisində dövlət başçıları, beynəlxalq təşkilat rəhbərləri, nazirlər və digər dövlət rəsmiləri yer alacaq. Bu səbəbdən də konfransda çox ciddi qərarlar alınacağı, mühüm məsələlərin müzakirə olunacağı aydındır.

Belə bir tədbirin keçirilməsi isə iki mühüm xarakteri ilə seçilir. Birincisi ev sahibi olan ölkəyə etimad məsələsi, ikinci isə ev sahibi olan ölkənin belə böyük bir tədbir keçirməklə bağlı təşkilatçılıq məsələlərinin icra edə bilməsi ilə bağlıdır. Azərbaycan etibarlı tərəfdaş olmaqla bərabər, həm də bu gün dünyanın ən təhlükəsiz ölkələrindən hesab olunur. Dövlət başçısı da tədbirin əhəmiyyətindən danışaraq, ADA universitetində keçirilən beynəlxalq konfransda Azərbaycanın COP29-u yüksək səviyyədə keçirəcəyi ilə bağlı fikirlərini səsləndirdi”.

***Səbinə Hüseynli***

# “Azərbaycan bütün bədbin proqnozları darmadağın etməyi bacardı”






***“Azad edilmiş ərazilərə "Böyük Qayıdış" Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri olaraq müəyyən olunub". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.***

O bildirib ki, bu Milli Prioritetlərə əsaslanan “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir: ”Qısa zaman kəsiyində Zəngilan, Füzuli, Laçın, Kəlbəcər, Ağdam və digər ərazilərimizdə görülən işlər, hava limanlarının açılması, şəhər və rayonlarımızın baş planının təsdiq olunması və baş plana uyğun fəaliyyətin təşkili, infrastrukturun yenidən qurulması yönündə aparılan fəaliyyət bir daha onu sübut edir ki, regionun lider dövləti olan Azərbaycan işğaldan azad etdiyi torpaqlarda qısa zaman kəsiyində həyatı canlandıracaq.

Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. İşğaldan azad edilmiş regionlarımızda yeni infrastrukturun qurulması, evlərin tikilməsi, o cümlədən yolların və digər kommunikasiya sistemlərinin yaradılması istiqamətində aparılan sürətli işlər onu deməyə əsas verir ki, 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın öz doğma yurd-yuvalarına qovuşmaları uğurla davam etdiriləcək. Müharibənin başa çatmasından sonra dünyada hökm sürən qlobal iqtisadi böhran və qeyri-sabit siyasi durumu nəzərə alan analitiklər bu bölgədə böyük layihələrin həyata keçirilməsi bir yana, insanların məskunlaşmasını belə yaxın onillik üçün real görmürdülər. Amma nəticə göz qabağındadır. Azərbaycan dövlət olaraq hər kəsə bunun mümkünlüyünü sübut edərək bütün bədbin proqnozları darmadağın etməyi bacardı”.

Onun sözlərinə görə, görülən işlərin nəticəsidir ki, bu gün Şuşa bütövlükdə Türk dünyasının siyasət və mədəniyyət mərkəzi rolunu oynayır: ”Hazırda şərqdən qərbə böyük tranzit yolun Azərbaycan hissəsinin tikintisi başa çatdırılıb. Füzuli və Laçın şəhərinə, Ağalı, Talış, Zabux kəndlərinə 6000 nəfərə yaxın insanın qayıdışı təmin edilib. Bütün bunlar, sözün həqiqi mənasında, olduqca əhəmiyyətlidir və dövlətimizin qüdrətini təsdiqləyən faktlardır.

Təbii ki, “Böyük Qayıdışın” tam şəkildə təmin olunması üçün bir sıra mühüm amillər vacib şərtdir. Bunların sırasında isə minalanmış ərazilərin təmizlənməsi də öncül sıralarda yer alır. Mənfur düşmənlərin 30 il ərzində işğal altında saxladıqları torpaqlarımızda apardıqları minalama indiyə qədər yüzlərlə vətəndaşmızın həyatına son qoyub. Həmin ərazilərin minadan təmizləmə işləri də sürətlə davam etdirilir. Artıq 20 faizə yaxın ərazinin minalardan təmizlənməsi təmin olunub.

Dövlətimiz bütün mühüm imkanları ilə ”Böyük Qayıdış” Proqramının uğurla icra edilməsi üçün hər şey edir. 2022-2026-cı illər üçün işğaldan azad olunan ərazilərimizin bərpa və yenidən qurulmasına 19.2 milyard manatın ayrılması da bunun bariz sübutudur. 2026-cı ilədək 40 minə yaxın ailə, bütövlükdə 150 mindən çox vətəndaşımızın 30 ildən sonra öz ata-baba yurdlarına qayıtmasının təmin olunacağına artıq heç kimin şübhəsi yoxdur”.

***Söylü Ağazadə***

---

## “Bu yanacaqdoldurma məntəqələri elektrik enerjisi ilə çalışacaq”

***""Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" ölkə ərazisində istifadə olunacaq nəqliyyat vasitələrinin, xüsusilə elektrik mühərrikli nəqliyyat vasitələrinin yanacaqdoldurma məntəqələrini təşkil edir". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib.***



O bildirib ki, bu yanacaqdoldurma məntəqələri elektrik enerjisi ilə çalışacaq: ”Elektrik enerjisi ilə çalışdığı üçün aidiyyəti qurum olaraq ”Azərişıq” və ”Azərenerji” müvafiq icra hakimiyyəti orqanı, səlahiyyət sahibidirlər. Burada yanacaqdoldurma məntəqələrinin özəlliyi ondan ibarət olacaq ki, bu yanacaqdoldurma məntəqələri müasir elektrik avadanlığı ilə təchiz olunmalıdır. İstənilən ölkəmizə gətiriləcək nəqliyyat vasitələrini doldurmaq üçün onun enerji təchizatını tam təmin etmək əlverişli olmalıdır. Çünki çeşidlər artır, ölkəyə müxtəlif tipli nəqliyyat vasitələri gəlməkdə davam edir; elektron mobillər, elektrik mühərrikli digər nəqliyyat vasitələri və sair buraya daxildir.

Ona görə də onun daimiliyi, möhkəmliyi yüksək standartlara cavab verməlidir. Bu nöqteyi-nəzərdən deyə bilərik ki, onların xüsusi təchizatında önəm payı olmalıdır. Digər məsələ isə ölkəyə gətiriləcək nəqliyyat vasitələrinin texniki parametrləri sərəncamda da qeyd olunduğu kimi onların mühərrik və işçi prinsiplərinə tam dəstək ola bilsin. Bu nəqliyyat vasitələri elə avadanlıqlar, elə təchizatla təmin olunmalıdır ki, orada hansısa nasazlıqdan söhbət getməsin”.

***Söylü Ağazadə***

## “ABŞ-ın Azərbaycanı ittiham etməsi absurddur”

***“ABŞ-ın 2023-cü il dünyada insan haqlarının pozulması ilə bağlı hazırladığı hesabatlar təbii ki, obyektiv durumu əks etdirmir. Bu cür hesabatlar daha çox ABŞ-nin qlobal siyasətinin həyata keçirilməsi və onun maraqlarının təmin olunmasına yönəlib. Məhz bu hesabatlar üzərindən müxtəlif ölkələrə təzyiqlər həyata keçirilməyə çalışılır.***



Bu hesabatın hazırlanmasının və məlumatların mənbələrinin mötəbərliyi də ciddi şəkildə sual altında olduğundan onlar həqiqəti əks etdirmir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib.

O bildirib ki, bu hesabatın Azərbaycana aid olan hissəsinə nəzər saldıqda burada üç istiqamət özünü göstərməkdədir: “Bunlardan birincisi, guya erməni əhalinin Qarabağdan qovulması məsələsidir. İkincisi, dindar şəxslərin həbs olunması, üçüncüsü isə hərbi əməliyyatlar zamanı hansısa pozuntulara yol vermiş hərbi qulluqçuların məsələlərinin araşdırılması ilə bağlı iddialardır. Qarabağdan getmiş ermənilərlə bağlı məsələ ümumiyyətlə qəbuledilməzdir. Onların bölgədən getmə səbəblərinə münasibət obyektiv deyil. Çünki bu, orada yaşamış erməni əhalisinin könüllü seçimidir. Əgər ABŞ bizə bu məsələni irad tutursa, ona 2001-2003-cü illərdə İraq və Əfqanıstanı işğal edəndə milyonlarla insanın zorakılıqla öz yurdunu tərk etməsinə səbəb olduğunu xatırlatmalıyıq. Bundan başqa Suriyaya soxulan ABŞ milyonlarla insanın öz evini tərk etməsinə səbəb olduğunu unudur”.

İşgəncə məsələsinə gəldikdə isə politoloq qeyd edib ki, bütün dünya ən azı 15-20 il öncə ABŞ hərbçilərinin həm İraqdakı Əbu Qreyb, eyni zamanda Kuba yaxınlığında Quantanamo həbsxanalarında saxlanılan şəxslərə qarşı törətdikləri dəhşətli hadisələri unutmayıb: “O zamanlar ABŞ bu məsələlərin hər hansı biri ilə bağlı obyektiv araşdırma aparmadı. Bu baxımdan ABŞ-ın Azərbaycanı ittiham etməsi absurddur. Öz ölkəsində miqrantlara, qaradərililərə və digər əhali qruplarına olan aşağılayıcı münasibətə baxmayaraq başqa dövlətləri ittiham etməsi qəbuledilməzdir. ABŞ əvvəlcə öz daxilində bu məsələləri həll etməli, daha sonra dünyadakı insan haqları ilə bağlı hesabatlar hazırlamalıdır.

Digər tərəfdən guya İranla düşmən olduğunu deyən ABŞ nədənsə o dövlətin Azərbaycandakı casuslarının həbsindən narahatlıq keçirir. Azərbaycan hansısa bir dindar öz dini əqidəsinə görə həbsə atılmayıb. Ona görə də belə iftiralar yolverilməzdir. Ümumi olaraq qeyd edə bilərəm ki, bu hesabatlar ABŞ-nin dünyada hegemon siyasətini həyata keçirmək üçün istifadə etdiyi təzyiq vasitələrindən biri kimi qəbul olunmalıdır”.

***Ləman Sərraf***

# Parlamentlərin savaşı

***Rusiya Federasiya Şurasının beynəlxalq komitəsinin rəhbəri Qriqori Karasin Ermənistan Milli Assambleyasından spikeri Alen Simonyanın Avropa İttifaqına üzv dövlətlərin parlament sədrlərinin konfransındakı çıxışı ilə bağlı mövqeyinə aydınlıq gətirilməsini istəyib. Xüsusən də erməni həmkarının Moskva haqqında danışması onu qəzəbləndirib.***

## *Paşinyan İrəvanla Moskva arasında münasibətlərdəki böhran fonunda reytinqini itirir*





Bu hadisə müttəfiqlik münasibətlərində daha bir fəsadın epizodu olub. İspaniyada çıxış edən Alen Simonyan bəyan edib ki, "Ermənistan Ukraynanın, eləcə də Moldovanın, Gürcüstanın, Kiprin və bütün ölkələrin ərazi bütövlüyünü qətiyyətlə müdafiə edir". Eyni zamanda, o vurğulayıb ki, İrəvan hər gün təhlükəsizlik təhdidləri ilə, o cümlədən Azərbaycan və Rusiyanın "hibrid hücumları" ilə üzləşir. Simonyanın fikrincə, Bakı Ermənistanı xoşagəlməz şəkildə göstərmək üçün müxtəlif KİV-lərdən istifadə edir və Rusiya Ermənistan əhalisi arasında dezinformasiya kampaniyasına başlayıb.

"Yuxarıda göstərilənlərin bariz nümunəsi aprelin 5-də Brüsseldə Ermənistanın baş naziri, Avropa Komissiyasının sədri və ABŞ katibinin iştirak etdiyi üçtərəfli görüşlə bağlı Rusiya və Azərbaycanın Ermənistana hibrid hücumudur. Bu görüşün qarşısını almaq üçün dezinformasiyadan istifadə edilib və bu, uğursuzluğa düçar olduğu üçün görüşün nəticələrini təhrif etməyə cəhd edilib", - Simonyan bildirib.

Federasiya Şurasının beynəlxalq komitəsinin rəhbəri Qriqori Karasin həmkarlarının diqqətini erməni siyasətçinin çıxışına yönəltmək qərarına gəlib. Xüsusilə, o, Simonyanın sözlərində "Kiyevdəki rejimlə birbaşa həmrəylik" notlarını gördüyünü deyib. Karasin hesab edir ki, Ermənistan Milli Assambleyasının spikeri Rusiyanın suverenliyinə şübhə ilə yanaşıb və "Federasiyanın yeni subyektlərinin sakinlərinin referendumlar zamanı açıq şəkildə ifadə olunmuş vətənləri ilə birləşmək istəyinə" məhəl qoymayıb. O, həmçinin vurğulayıb ki, Rusiyanı Ermənistanın təhlükəsizliyinə təhdid kimi təqdim etmək cəhdləri heç bir çərçivəyə sığmır, çünki iki ölkə 1997-ci ildə imzalanmış müvafiq saziş və Avrasiya İqtisadi İttifaqına (Aİİ) üzvlük əsasında müttəfiqdir. Eyni zamanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvləridir.

Rusiya-Ermənistan Universitetinin dosenti Anton Evstratov hesab edir ki, baş verənlər indi çətin günlərini yaşayan indiki Rusiya-Ermənistan münasibətlərinin məntiqinə tamamilə uyğundur. "Ermənistandan belə görünür: Rusiya və KTMT ermənilərin Qarabağdan köçünün qarşısını almayıb, Rusiya mətbuatı isə mütəmadi olaraq Ermənistan hakimiyyətinə hücum edir. Buna cavab olaraq İrəvan bütün mümkün vasitələrlə ABŞ və Aİ ilə yaxınlaşmağa çalışır", - ekspert bildirib. Evstratov hesab edir ki, Simonyanın İspaniyada çıxışına gəlincə, bu, təkcə Ermənistanın hakim elitasının deyil, həm də erməni cəmiyyətinin mühüm hissəsinin hisslərini nümayiş etdirir. Eyni zamanda, onun fikrincə, bu səviyyəli siyasətçi harda danışırsa, İrəvanın Moskvadan nə qədər asılı olduğunu həmişə xatırlamalıdır.

Erməni politoloqu Boris Navasardyan hesab edir ki, Simonyanın çıxışının rusiyalı senatorların bəyənmədiyi hissəsi ümumilikdə Ermənistan cəmiyyətində ölkənin Rusiya ilə münasibətlərinin xarakterindən məyusluğunu əks etdirir. Bu, ilk növbədə, təhlükəsizlik və informasiya siyasəti məsələlərinə aiddir. Buna baxmayaraq, o qeyd edib ki, Ermənistanda ictimai rəyin qütbləşməsi şəraitində bu və ya digər siyasətçinin bəyanatının bütün vətəndaşlar tərəfindən dəstəkləndiyini söyləmək mümkün deyil. Amma o, şübhə etmir ki, rəsmi olaraq İrəvanın strateji müttəfiqi statusunu saxlayan Moskvanın siyasətindən narazılığın artması tendensiyası var.





Qeyd edək ki, sadə ermənilərin hakimiyyətin hərəkətlərinə reaksiyası həqiqətən də birmənalı deyil. Qondarma "soyqırımı" günü bu, xüsusilə nəzərə çarpırdı. Belə ki, soyqırıma həsr olunmuş Çiçernakaberd memorial kompleksinin yaxınlığında toplaşanlar baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın oraya gəldiyini göröndə "Nikol türkdür" şüarları səsləndiriblər. Amma bu, birinci ledini çox da narahat etməyib. Akopyan sadəcə gözlərini yumub və bununla da onu tənqid edənlərin fikirlərinə əhəmiyyət vermədiyini nümayiş etdirib.

Ümumiyyətlə, Azərbaycan və Türkiyə ilə münasibətlərin qurulmasının əleyhdarları cəmiyyətdə mümkün qədər çox siyasi xal toplamaq üçün matəm tarixlərindən istifadə etməyə çalışırlar. Yerli KİV-lər respublikanın keçmiş hakimiyyət dairələrindən olan müxalifətçilərin Paşinyanın "öz vətəninin bir parçasını bir-birinin ardınca düşmənə verməsi, İrəvan küçələrində onların tərəfdarlarının polislə toqquşması" barədə bəyanatları ilə dolub. Təhlükəsizlik qüvvələri isə müxalifləri dağıtmaq üçün xüsusi vasitələrdən istifadə ediblər və qalxanla, dəbilqə ilə hərəkət ediblər. Bunun məntiqi nəticəsi olaraq, polis 100-ə yaxın adamı saxlayıb.

Rusiya Federasiya Şurasının nümayəndəsinin Ermənistan parlamentinə müraciəti Moskva ilə İrəvan arasında münasibətlərin pisləşməsinə səbəb olub. Onlar arasında böhranın hər keçən gün bir az daha dərinləşdiyini nümayiş etdirir. Hələlik bu, siyasi və hərbi təmaslara təsir edir, lakin gələcəkdə Aİİ daxil olmaqla, ticarət-iqtisadi əməkdaşlığa da təsir göstərə bilər. Bu, qismən geosiyasi vəziyyətin dəyişməsi ilə bağlıdır. Amma əsas səbəb Paşinyanın hakimiyyətdə qalmaq istəyidir. Bu məqsədlə o, Ermənistanın düşdüyü vəziyyətə görə məsuliyyəti özündən Rusiyanın üzərinə atmağa çalışır. Eyni zamanda, erməni cəmiyyəti üçün əsas məsələ Moskva ilə münasibətlər deyil, öz hakimiyyətlərinə inamdır. Aprelin sonundan bəri müşahidə etdiyimiz etirazlara görə, Paşinyanın populyarlığı görünməmiş aşağı səviyyəyə düşüb.

***V.VƏLİ***






RAKURS

# Əli Kərimli nasistlərə xidmət etməyi Rusiyaya rəğbətdən üstün hesab edir

*Dövlətimiz gücləndikcə və uğurları artdıqca daxili və xarici məkrli qüvvələrin də narahatlığı artmağa başlayır. Onlar bu uğurlara kölgə salmaq üçün hər cür çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmirlər. Dağıdıcı müxalifətin mitinq planlaşdırması da Azərbaycan əldə etdiyi möhtəşəm nailiyyətləri polislə qarşıdurmalar yaratmaqla, şəhərin müxtəlif küçə və meydanlarında təxribatlar törətməklə zədələməyə çalışırlar.*



Son günlər Əli Kərimlinin, Cəmil Həsənlinin, Fuad Qəhrəmanlının, Seymur Həzinin, Gültəkin Hacıbəylinin və digərlərinin sosial şəbəkələr vasitəsi ilə qərəzli, şər və böhtan xarakterli məlumatlarının sayını artırmaları, məhz planlaşdırılan təxribatlara zəmin yaratmaqdır. Çox vaxtı dəxli olmayan, mövzudan uzaq olan fikirlər səsləndirib, mövqe ifadə edirlər. Əli Kərimli, Fuad Qəhrəmanlı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və digərləri indi də deyirlər ki, "Sərbəst toplaşmaq azadlığı pozulur", "Ölkədə siyasi məhbuslar var" və bu kimi digər cəfəng iddialar irəli sürüb, fikirlər səsləndirirlər. Bəzən sayıqlamağa söz tapmadığından "Zəngəzur dəhlizi" mövzusundan danışırlar, deyirlər ki, Zəngəzur dəhlizi nə zaman açılacaq, Bundan əvvəl özlərini ağıllı göstərməyə çalışaraq bildirirdilər ki, rus sülhməramlıları nə zaman Qarabağdan çıxacaq, niyə Qazağın işğalda olan 4 kəndi qaytarılmır. Lakin bu Sorosun sehirli çubuğu ilə idarə olunan məxluqlar anlamırdılar ki, hər şeyin zamana ehtiyacı var. Digər tərəfdən "Nəyi, necə və nə vaxt etməyi" Fateh Sərkərdə, Prezident İlham Əliyev bilir. Məhz Onun bildiyi zamanda Azərbaycanın 4 kəndi qaytarıldı və bölgədə müvəqqəti yerləşdirilən Rusiyanın hərbi kontingentinin ərazidən çıxarılmasına başlanıldı. Bu gün artıq Azərbaycanın ərazi məsələsi ilə bağlı heç bir problem yoxdur. Bütün məsələlər ölkəmizin maraqları çərçivəsində öz həllini tapıb.

### Əli Kərimlinin gündəlik ifadə etdiyi fəaliyyət şər və böhtanlardan ibarətdir

Cəfəng, mənasız, yersiz fikirlərlə çıxışlar edib, özünü məlumatlı şəxs kimi təqdim etməyə çalışan Ə.Kərimli əslində, ölkəmizin əldə etdiyi son siyasi, diplomatik qələbə ilə heç nə bilmədiyini nümayiş etdirmiş oldu. Əgər onda az da olsa siyasi mədəniyyət, etik qabiliyyət olsaydı, etdiyi mənasız açıqlamalara, fikirlərə görə xalqdan üzr istəyərdi. Lakin göründüyü kimi, Ə.Kərimlinin və ətrafında dolaşan trolların elə bir siyasi mədəniyyət qabiliyyətləri yoxdur. Əksinə, daha həyasız və abırsız formada üz qırmızılıqlarını edirlər. Qənimət Zahidin internet TV-sinə açıqlamasında Ə.Kərimli iddia edir: "o əmin deyil ki, Rusiyanın hərbi kontingenti ərazidən tamamilə çıxsın". Göründüyü kimi, bu məxluq son məqamda belə pozucu əməllərindən əl çəkmir. Rusiya hərbi kontingentinin böyük hissəsi Qarabağı tərk etdiyi halda, bu məxluq yenə də sayıqlama xarakterli fikirlər səsləndirir. Bununla onun siyasi biliklərinin, xüsusilə də siyasi analizlərinin əməkdaşlıq etdiyi Avropadakı anti-Azərbaycan dairələrin fikirlərindən fərqlənmədiyini göstərir. Bir qədər əvvəl də Ə.Kərimli eyni nağılları səsləndirirdi, deyirdi ki, Rusiya hərbi kontingenti Qarabağdan çıxmayacaq. Həm də iddialı şəkildə dezinformasiya yaymağa çalışırdı ki, guya Ermənistanın arxasında Avropanın aparıcı güc mərkəzləri dayandığı üçün Qazağın işğal altında olan 4 kəndi qaytarılmayacaq. Lakin Ə.Kərimlinin xəyalları elə xəyal olaraq qaldı. Proqnozlarının sabun köpüyündən başqa bir şey olmadığı nümayiş etdirildi. Qazağın 4 kəndi Azərbaycana qaytarıldı, sərhədlərin delimitasiyasına start verilir, Rusiyanın hərbi kontintgenti əraziləri tərk edir. Bu faktlardan sonra Ə.Kərimli ən azı özünə hörmət etməyi bacarsaydı, Azərbaycan xalqından üzr istəyib, siyasətdən gedərdi.

### Əli Kərimlini Rusiyanın qaranlıq dairələrindən narazı salan nədir?

Təəccüb doğuran, həm də diqqətçəkən nüans ondan ibarətdir ki, niyə Ə.Kərimli Rusiyaya qarşı pataloji nifrət nümayiş etdirir? Axı o, zamanında Rusiyanın qaranlıq dairələrinin əlaltısı olub. İndiki hal da nasistlərə xidmət etmək Rusiyaya rəğbət göstərməkdən pisdirmi? Ə.Kərimli deyilmi, Almaniya nasist partiyasının fəal üzvü, bu dövlətin AŞPA-dakı deputatı Frank Şveberin "Azərbaycana qarşı sərgilədiyi sərt və prinsipial mövqeyinə görə təşəkkür edir və onun əlini sıxıram", - deyən. Bu, o F.Şvaberdir ki, AŞPA-da Azərbaycanın səsvermə hüququnun məhdudlaşdırılması layihəsi ilə çıxış etmiş və həmfikirlərinin dəstəyi ilə istəyini reallaşdırmışdır. Ə.Kərimlinin faşist ideologiyasının fəallarından olan şəxsə təşəkkür etməsi, onun qanında müəyyən zərərli hüceyrələrin olmasından xəbər verir. Ya da maddi və mənəvi dəstək aldığı Avropa və ABŞ-dakı ağalarından F.Şveberin mövqeyini dəstəkləmək göstərişini alıb. Bunun fonunda Rusiya-Azərbaycan münasibətlərinin pozulmasına xələl gətirmək, Azərbaycan cəmiyyətində narahat fikirlər formalaşdırmaq göstərişini alıb. Halbuki, zamanında Ə.Kərimli Rusiyanın müəyyən dairələrinin ayırdığı maliyyə vəsaitlərindən geninə-boluna bəhrələnməsi barədə informasiyalar var. Bütün bunlar Azərbaycan məhkəməsi tərəfindən də öz hüquqi təsdiqini tapıb. Belə ki, Rüstəmov Saleh Məhərrəm oğlunun, Rüstəmli Vidadi Valeh oğlunun, Məhərrəmov Aqil Əli oğlunun, Həsənov Babək Qəzənfər oğlunun və Nəsirov Ruslan Şamil oğlunun Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən məhkəmə prosesində Ə.Kərimliyə Rusiyadan pul göndərildiyi sübuta yetirildi. AXCP-nin nəzarət-təftiş komissiyasının üzvü olan Təzəxan Mirələmli ifadəsində göstərmişdir ki, Polşada yaşayan Elturan Rüstəmli onun facebook səhifəsinə yazıb Əli Kərimlinin çıxışlarının niyə görə keyfiyyətsiz olduğunu soruşub, ona deyib ki, ola bilsin kameralar köhnədir. Bundan sonra Elturan ondan xahiş edib ki, bir nəfər tanışı ilə vebkamera və mikrofon göndərəcəkdir, həmin şəxslə görüşüb əşyaları ondan alıb Əli Kərimliyə vermək lazımdır. 2018-ci ilin mart ayında Elturanla əvvəldən vaxtını təyin etdikləri kimi Vidadi ilə Gənclik metrostansiyasının yanında görüşüb, vebkamera və mikrofonu ondan alaraq Əli Kərimliyə çatdırıb.

### "Əli Kərimli agentdir"

BAXCP sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev isə Əli Kərimlinin Rusiyanın agentura şəbəkəsi tərəfindən əməkdaşlığa cəlb olunduğunu söyləyib: "Əli Kərimli "Milli Şurada rol oynadı, Cəmil Həsənli də onunla oldu. Hətta Putinə məktub yazıb onu demokrat kimi təqdim etdilər. Putinə hazırladıqları məktub mətbuatda dərc edildi. Əli Kərimli bu gün maliyyəni Qərbdən alsa da, onun Rusiyaya işləməsini düşünməyə ciddi əsaslar var. Məsələn, Əli Kərimlinin Qənimət Zahidi pul üçün Rusiyaya göndərməsi. Və ya Qənimət Zahid Cənubi Azərbaycandan yazırdı, Əbülfəz Elçibəyin yanında idi. Onun İrana göndərilməsi anlaşılan deyildi. Bildiyiniz kimi, Qənimət Zahid Azərbaycana qayıdan kimi dedi ki, onu İranda saxlayıblar, əməkdaşlığa cəlb etmək istəyiblər. Adətən, ikili agentlər bu metoddan istifadə edirlər.Ona görə deyirəm ki, Əli Kərimlinin sovet vaxtından "KQB"-yə işləməsi ilə bağlı ciddi əsaslar var. Bu günə qədər mətbuatda dəfələrlə məsələ qaldırılıb ki, onun vəsiqəsinin "Krasno Zvezda" qəzetində çap olunması necə baş verə bilərdi, ancaq Əli Kərimli bu məsələyə aydınlıq gətirmir. Çünki bilir ki, mətbuat bunu araşdıracaq".

Bu kimi ortada olana faktlardan, əsasən də keçmiş əqidə dostlarının Ə.Kərimlini mövcud faktlarla ifşa etmələri onu təsdiq edir ki,"Yurd" şefinin hazırda Rusiyaya qarşı ittihamlar irəli sürməsi müəyyən səbəblərlə əlaqəlidir. Birincisi, Rusiyadakı qaranlıq dairələr ona maliyyə yardımları ayırmaqdan imtina ediblər. İkincisi, "bacarıqsız agent" statusu adını aldığından onunla əməkdaşlıq əlaqələrinə son qoyulub. Üçüncüsü isə, Azərbaycanın Rusiya ilə isti münasibətlər qurması və bundan Avropadakı məkrli dairələr ciddi narahat olduqlarından Ə.Kərimli vasitəsi ilə Bakıya təsir edib, münasibətlərə xələl gətirməyə çalışırlar. Lakin Ə.Kərimli anlamır ki, bu gün dünyada çox ciddi geosiyası hadisələr yaşanır. Belə qarışıq dönəmdə dövlətləri düzgün və ağıllı siyasət aparmaları yarana biləcək problemlərdən qaçmağa imkanlara yaradır. Rusiya ilə Azərbaycan yaxın qonşu dövlətlərdir. Hər iki dövlət başçısının düzgün siyasət aparmaları nəticəsində bölgədə sülhün bərqərar olması imkanları yaranıb. Bu baxımdan, Fransa, Almaniya, ABŞ, Niderland və bu kimi digər ermənipərəst dövlətlərlə müqayisədə Rusiya bizə daha münasib və maraqlarımıza uyğun gələn dövlət hesab olunur. Bu baxımdan hazırkı mərhələdə Azərbaycan Rusiya ilə iqtisadi, siyasi, diplomatik əlaqələrini ən yüksək səviyyədə inkişaf etdirir. Bundan Ə.Kərimli və onun Avropa və ABŞ-dakı ağaları narahat olurlarsa, bu, onların problemidir. Azərbaycan dünyanın ən güclü və qüdrətli dövləti olaraq kiminlə və hansı dövlətlə necə və hansı formada əlaqələr qurmaq lazım gəldiyini yaxşı bilir.

**İLHAM ƏLİYEV**

# Çörək yeyəndə, de, bismillah!

**FELYETON**

*Deyir, qulaq gündə bir xəbər eşitməsə, kar olar. Maşallah, indi də ki, az qalır gündə on xəbər eşidəsən. Elə bu səbəbdən də qulağımızın kar olma ehtimalı sıfıra bərabərdir, bir yana, hələ üstəlik eşitdiyimiz bu xəbərlərdən öyrənməli olduğumuz çox məqamlar da var. Məsələn, bu günlər müğənni xanımlardan birinin oxuduğu popurinin içərisində çoxsaylı mahnılardan biri də elə bir bənd şeirdən ibarətdir:*

Çörək yeyəndə, de, bismillah,
Yedin, qurtardın, de, əlhəmdullah.
Gedib yatanda, deginən, ay Allah,
Sən olmayasan, biz də olmarıq.



Bəh, bəh, bəh... Hələ bu yaşa gəlmişəm, birinci dəfədir, belə gözəl tövsiyə ilə qarşılaşıram. Bu yaşa gəlmişəm, belə avazlı qafiyə ilə rastlaşmamışam. O qədər şairlərin şeirlərini oxumuşuq, əzbərləmişik, dinləmişik, belə təsirlisi olmayıb.

Görəsən, bu bir bəndi hansı şair yazıb, hansı bəstəkar bəstələyib? Adam düşünür ki, bəlkə də bunun gözəlliyi elə gizli olmasındadır. Necə ki, bəzi insanlar hazırda paltar geyinməyə deyil, soyunmağa çalışır, biz də dayanıbdurmadan onları tənqid edirik, hər şeyin gizliliyi gözəldir, deyirik, elə bu bəndin də kimə məxsus olmasının gizli qalması onun gözəlliyidir. Yəni, hələlik öyrənə bilməmişik. Yoxsa kimsə yazıb da bunu, göydən düşməyib ki...

Neçə illərdir, bu dünyada binəyik. Kim indiyədək bizə belə gözəl, dəyərli məsləhətlər verib? Siz məsləhətdəki hikmətə baxın: çörək yeyəndə, de, bismillah, yedin, qurtardın, de, əlhəmdullah. Vallah, bunu fikirləşib tapmağa idrak lazımdır. Həm də gərək Allahı sevən birisi olasan ki, bu qədər gözəl ifadələrlə tövsiyə edə biləsən.

Və yaxud da, gedib yatanda, deginən, ay Allah, sən olmayasan, biz də olmarıq. Bunu necə, kim düşünüb tapa bilərdi? Vallah, sizi bilmirəm, mən bu qədər zənginlik, ümumiyyətlə, şeiriyyətimizə, mədəni mühitimizə gətirilən yenilik qarşısında baş əymək istəyirəm. Lakin qorxuram ki, boynum sınar.

Bu bir-birindən mənalı sözlərlə, musiqi ilə zəngin popurinin sonunda isə, ifaçı qeyd edir ki, bax, belə mahnıları tez-tez oxumaq lazımdır ki, nankor qonşu oğurlamasın, özününküləşdirməsin. Artıq bu fikirləri də dinləyəndən sonra mən elə ucadan çığırıb "əhsən" dedim ki, öz səsim öz başıma düşdü, neçə gündür ki, başımın ağrısından ölürəm.

Halal olsun bizim televiziya kanallarına. Harada yenilik var, tapıb çıxarırlar ortaya. Kişinin uşaqları dayanmır da. Baxın, dinləyin, qiymət verin siz də. Və elə həmin gündən də anlayacaqsınız ki, həqiqətən də yemək yeyəndə "bismillah", yeyib qurtarandan sonra "əlhəmdullah" demək lazımdır.

Gedib yatanda isə "ay Allah, sən olmayasan, biz də olmarıq" demək mütləqdir. Bugünədək bir müsəlman olaraq bu, hansınızın ağlına gəlib? Başınızı qatmısınız "Tik Tok"da, "Votsap"da, "İnstagram"da, görün, bir nələrdən xəbərsizsiniz. Əhsən, halal olsun sənə, gözəl müğənni, bəlkə bizi sən dinə-imana gətirəsən, bəlkə bizim mahnıları erməni təzavüzündən sən qoruyasan. Minnətdarıq sənə!

***Mətanət Məmmədova***

# COP29: niyə Bakı?




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.***

***Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə konfransına – COP29-a ev sahibliyi edəcək ölkənin – Azərbaycanın, dünyanın ən böyük neft hasil edən ölkələrindən biri olması məqamı əslində diqqətə alınacaq bir məqamdır. Yəni, neft və qaz hasil edən bir ölkə ekoloji baxımdan dünyanın ən nüfuzlu konfransına sədrlik edəcək.***

COP29-un keçiriləcəyi ölkə ilə bağlı qərar Şərqi Avropa ölkələri qrupu tərəfindən hələ 2023-cü ilin iyununda verilməli idi, lakin məsələ qeyri-müəyyən qaldı. Əslində, 2024-cü ilin noyabrındakı COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürüb. Məlumat üçün bildirək ki, COP29 konfransının keçirilməsi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürüb. Ötən ilin dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb. Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

Azərbaycan dünyada gəliri neftdən gələn dövlətin ən parlaq nümunələrindən biridir. Azərbaycan bu estafeti dünyanın 7-ci ən böyük neft hasil edən ölkəsi olan Birləşmiş Ərəb Əmirliklərindən götürür. Ölkənin ümumi ÜDM-də neft-qaz sektorunun xüsusi çəkisi orta hesabla 47,8 faiz, büdcə vəsaitlərinin 52,7 faizi neft gəlirləri hesabına formalaşır, ümumi ixracın 92,5 faizi neft məhsullarının payına düşür. Neft sektorunda 39,4 min nəfər işlə təmin olunub.

### Niyə Azərbaycan?

Artıq üçüncü ildir ki, COP konfranslarına neft hasil edən ölkələr ev sahibliyi edir. 2023-cü ildə bu beynəlxalq konfransa ev sahibliyini Birləşmiş Ərəb Əmirliyi, 2022-ci ildə isə Misir etmişdi. Dünyanın ekoloji problemlərini gündəmə gətirən, müzakirəsini aktuallaşdıran bu konfrans neft ölkələrini boşuna seçmir. Azərbaycan kimi neft-qaz ölkələrində ekoloji tarazlığın qorunması üçün daha çox tədbirlərin görülməsini vacib sayan COP, bu istiqamətdə həmin ölkələrin daha çox məlumatlandırılmasını vacib sayır. Sirr deyil ki, qalıq yanacaqların hasilatının azaldılması, getdikcə dayandırılması məqsədi ilə təbliğat aparılır. Azərbaycanın ekoloji məsələlərdə demokratik olmadığını düşünən COP-çular bu yolla iqlim problemlərini gündəmdə saxlamaq istəyirlər.

Prezident İlham Əliyev Azərbaycanın bu konfransa sədrliyi ilə bağlı dediklərindən: "Neft hasil edən ölkə COP-a sədrlik edir. Sanki, bu, bizim günahımız idi. Mənim isə onlara mesajım ondan ibarət idi ki, bizim neft ölkəsi olmağımız bizim günahımız deyil. Baxın görün, biz bu resurslardan necə istifadə edirik. Əvvəla baxın görün ki, biz bu resurslardan ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması üçün necə istifadə edirik. Sonra baxın görün ki, biz ondan infrastruktur, yaşıl enerji üçün necə istifadə edirik. Beləliklə, bu gün biz sabit neft və artan qaz hasilatına malikik, eyni zamanda, yaşıl enerji layihələrini inkişaf etdiririk".

Prezident İlham Əliyev deyir ki, COP29-un əhəmiyyəti Azərbaycan üçün çox əhəmiyyətlidir: "Biz iqlim dəyişikliyi ilə mübarizə baxımından COP29-un uğurlu olmasını istəyirik. Eyni zamanda, bu, bizim üçün hekayəmizi diqqətə çatdırmaq fürsətidir. Bizim dünyaya deyəcək sözümüz çoxdur. Biz həqiqəti söyləməliyik və hesab edirəm ki, ev sahibliyi etməyin üstünlüklərindən biri on minlərlə qonağın gəlməsi olacaqdır. Onların əksəriyyəti buraya ilk dəfə səfər edəcək. Onlar iki həftə və hətta daha az vaxtda vəziyyəti qiymətləndirmək imkanı əldə edəcəklər. Özlərini necə hiss edirlər, ölkəni necə görürlər və bizim planlarımızın nədən ibarət olduğunu öyrənəcəklər".

### COP29, Azərbaycan və sülh

"COP29 sülh prosesinin nəticəsidir" deyən ölkə rəhbəri bildirir ki, budəfəki konfransın mövzusunun maliyyə olmasına baxmayaraq, ev sahibi ölkə olaraq biz gündəliyə bir neçə əlavə edə bilərik və belə məsələlərdən biri də sülh olacaq: "Birincisi, ona görə ki, biz məhz sülh prosesi sayəsində COP29-a ev sahibliyi etmək hüququ qazandıq. Çünki burada Ermənistan vetosunu aradan qaldırdı və biz də qarşılıqlı addımlar atdıq. Burada söhbət təkcə COP-dan və ötən dekabrdan getmir. Burada aramızda etimadın yaranmasından söhbət gedir. Çünki ən böyük çağırış qarşılıqlı etimadın olmaması və ya onun çox aşağı səviyyədə olmasıdır. COP29-un Azərbaycanda keçirilməsi münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsidir".

İlham Əliyevin sözlərinə görə, ekoloji problemlər ölkəmizin gündəmindədir: "COP29-un keçirilməsi bizə həvalə edilməmişdən əvvəl biz ekoloji problemlərlə ciddi məşğul olurduq və iqlim dəyişikliyinin mənfi fəsadlarını azaltmağa çalışırdıq. Hər kəs xüsusilə yayda çimərliyə gedəndə dənizin hər il geri çəkildiyini görə bilər və bu, heç vaxt belə olmamışdır. Bir vaxtlar dəniz irəliyə gəlib geri çəkilirdi, lakin bu, bir proses idi. İndi isə dəniz yalnız geri çəkilir. Bu, ətraf mühit, eləcə də ticarət üçün ciddi problemdir. Biz gəmilər üçün daha çox kanal qazmalıyıq və əgər Xəzər dənizinin geri çəkilməsi olduğu kimi davam edərsə, biz nəinki təkcə ciddi ekoloji problemlə, kommunikasiya layihələri ilə də bağlı problemlər yaşayacağıq. Çünki hazırda icra edilməkdə olan vacib layihələrdən biri - Orta Dəhliz Xəzər dənizindən keçir. Beləliklə, burada bir çox məsələlər var. Biz burada ətraf mühitin mühafizəsi ilə bağlı çoxlu işlər görürük".

"Azərbaycan ətraf mühitin mühafizəsinə əhəmiyyət verir", - deyən ölkə rəhbəri ölkəmizdə 1994-cü ildən bəri bütün neft əməliyyatları beynəlxalq ətraf mühit mühafizəsi standartlarına əsasən aparıldığını, əsas investorların dünyanın aparıcı enerji şirkətləri olduğunu və onların da hər kəs kimin ətraf mühitə diqqət yetirdiyinin yaxşı bir nümunə olduğunu deyir.

Qeyd edək ki, COP29-dan əvvəl Azərbaycanla Ermənistan arasında razılaşmanın, ən azı baza prinsipləri ilə bağlı razılaşmanın əldə olunması tamamilə realdır. Bunu Prezident xüsusilə vurğulayır. O bildirir ki, baza prinsipləri ilə bağlı razılığa gəlmək və sonra məzmunun təfərrüatlarına daha çox vaxt ayırmaq da bir variantdır: "Lakin hətta layihə hazır olsa da, düşünürəm ki, bunun üçün hər iki tərəf gərgin işləməli və ola bilsin görüşləri bir gün deyil, bir neçə gün keçirməlidir".

***Lalə Mehralı***






SON SƏHİFƏ
SƏS
27 aprel
2024-cü il

# Rəsmi nikah, yoxsa vətəndaş evliliyi vacibdir?






***Azərbaycan qanunvericiliyi vətəndaş nikahı institutunu tanımır. Qanun yalnız rəsmi, dövlət qeydiyyatından keçmiş nikahları tanıyır. Amma din xadimləri vətəndaş nikahını vacib hesab edirlər. Dini kəbinlərin rəsmi nikahlardan əsas fərqi nədir? Rəsmi nikah, yoxsa vətəndaş evliliyi vacibdir? SİA mövzu ilə bağlı Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vəkil Turan Abdullazadə və ilahiyyatçı Elşad Mirinin fikirlərini öyrənib.***

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vəkil Turan Abdullazadə: "Dini kəbin kəsmək, dini nikah hüquqi əhəmiyyətə malik deyil və dövlət tərəfindən tanınmır. Dini nikah da qeyri-rəsmi nikahın bir növüdür. Yeni dini nikah kəsdirən cütlüklər rəsmi nikahdan əmələ gələn əmlak iddiası ilə bağlı bir-birinə qarşı tələb irəli sürə bilməz. Dini kəbin kəsdirən cütlüklərin bir-birinə qarşı əmlak iddiası qaldırması vaxt itkisindən başqa bir şey deyil. Azərbaycan Respublikasının konstitusiyasına əsasən din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

### Dini nikah kəsdirən cütlüklərin bir-birinə qarşı hansı iddiası ola bilər?

Dini kəbin kəsdirən qadın nikahdan kənar doğulmuş övladına görə uşağın atasına qarşı aliment iddiası qaldıra bilər. Uşaq aralarında nikah olmayan şəxslərdən olduqda və atanın razılığı olmadıqda atalıq ananın ərizəsi əsasında məhkəmə qaydasında müəyyən olunur. Yəni atanın belə razılığı olmadıqda məhkəmə qaydasında atalıq müəyyən olunduqdan sonra qeyri-rəsmi nikaha daxil olmuş qadının uşağına görə aliment almaq hüquqları yaranır. Atalıq müəyyən olunduqdan sonra nikahdan kənar doğulmuş uşaqların nikahdan doğulan uşaqlarla bərabər hüquqları vardır. Yəni nikahdan kənar doğulmuş uşağa atalıq müəyyən olunduğu təqdirdə aliment düşür".

İlahiyyatçı Elşad Miri: "Rəsmi nikah dövlətin qəbul etdiyi, tanıdığı, hər iki tərəfin haqq və hüquqlarını qoruduğu, uşaqların miras, vərəsəlik hüququnun ortaya çıxdığı məsələdir. Burada hər tərəf qorunur. Amma digərində vətəndaş evliliyidir. Vətəndaş evliliyi dediyimiz dünyanın heç bir yerində rəsmi şəkildə həyata keçirilmir. Bunlar öz aralarında olan yanaşmadır. Amma İslam dinində kəbin dediyimiz anlayış belədir ki, şahidlər olduğu zaman digər insanların da biliyi daxilində olarsa, gizli olmadığı təqdirdə qəbul edilir. Amma burada da qadının tərəfi hüquqi baxımdan da qorunmalıdır. Uşaqlar dünyaya gələrsə, onlar qorunmalıdır. Bunlar da nəzərə alınarsa, sabah hansısa məsələ, kişinin ağzından çıxacaq 2-3 sözdən ibarət olmayacaqsa, burada heç bir problem yoxdur. Amma hansısa tərəfin hüququ pozularsa, vərəsəlik məsələsi ortaya çıxmazsa, aliment və digər məsələlər olmazsa, o zaman bunun bir mənası qalmır".

***Söylü Ağazadə***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Təhsil haqqı dövlət tərəfindən ödənilən bu şəxslərin yaş həddi artırıla bilər

***Təhsil haqqı dövlət tərəfindən ödənilən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərin yuxarı yaş həddinə yenidən baxılması və ya artırılması məsələsi ilə bağlı təkliflər aidiyyəti üzrə göndərilib.***



SİA xəbər verir ki, bunu Milli Məclisin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev parlamentin Əmək və sosial siyasət komitəsinin bugünkü iclasında çıxışı zamanı deyib. "Həssas təbəqədən olan şəxslərin təhsil haqlarından azad edilməsi ilə bağlı yaş həddinin dəyişdirilməsi hələ müzakirə mövzusu deyil: "Gələcəkdə bu məsələyə qanunvericilik səviyyəsində baxıla bilər".

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev isə cavabında bildirib ki, valideyn himayəsindən məhrum olan uşaq tutaq ki, 23 yaşından sonra universitetə qəbul olur. Bəs onun təhsil haqqını kim ödəyəcək?:

"Halbuki o dövlətin uşağıdır, deməli dəstəyi bundan sonra da təhsil haqqını dövlət ödəyəcək. Əslində belə uşaqların sayı elə də çox deyil ki, maliyyə yükü də çox olsun. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərin yuxarı yaş həddinə yenidən baxılması məsələsinə gəlincə, bu, müvafiq qurumlarla müzakirə olunur, danışıqlar gedir".

# Bu gün 32 dərəcə isti olacaq

Bakıda və Abşeron yarımadasında aprelin 27-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, gecə və səhər bəzi yerlərdə zəif duman olacaq, cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18° isti, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 60-70 %, gündüz 40-50 % olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17° isti, gündüz 27-32° isti, dağlarda gecə 7-12° isti, gündüz 18-23° isti olacaq.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**